www.iqtisadiyyat.com

№ 14 (1009) 05-12 aprel 2018-ci il

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan Respublikasının Prezidentinə səs vermək xalqımızın xoşbəxt gələcəyinə, dövlətimizin müstəqilliyinin güclənməsinə səs vermək deməkdir

**Aprel ayının 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Bununla əlaqədar olaraq aprelin 2-də "İki sahil" internet televiziyası Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadəni "Siyasi baxış" verilişinə dəvət edərək, onunla fikir mübadiləsi aparmışdır. Həmin müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.**

**Aparıcı Ayan Yusifova: Bildiyiniz kimi, ölkəmiz mühüm bir hadisə ərəfəsindədir - aprel ayının 11-də prezident seçkiləri keçiriləcək. Bununla əlaqədar olaraq "Siyasi baxış" verilişi silsilə proqramlar təqdim edir. Bu gün də studiyamızın qonağı ilə bir yerdə növbəti verilişimizi sizlərə təqdim edəcəyik. Qonağımız Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadədir. Xoş gəlmisiniz, Ziyad müəllim. Prezident seçkilərindən danışmazdan öncə istərdim son 15 ildə Azərbaycanın sosial-iqtisadi durumu ilə bağlı sizin fikirlərinizi öyrənək.**

**Ziyad Səmədzadə:** Bu gün dünyada 200-dən artıq dövlət var ki, onların da hər birinin özünün iqtisadi siyasəti mövcuddur. Bunun həyata keçirilməsi üçün isə hökumət üzvləri xalqla bir yerdə çalışırlar. Azərbaycan müstəqillik əldə etdikdən sonra bir neçə inkişaf mərhələsindən keçib, artıq bu gün 90-cı ilin əvvəli ilə müqayisədə güclü iqtisadi potensiala malikdir. Ulu öndər Heydər Əliyev də o zaman demişdi: "Müstəqilliyi qazanmaq asandır, amma onu qorumaq qat-qat çətindir". Çünki qloballaşan dünyada yaşayırıq. Belə bir şəraitdə hər bir müstəqil dövlətin qorunması, inkişafı ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycan dövlətinin apardığı uğurlu siyasət nəticəsində son 15 il ərzində, sözün əsl mənasında, çox böyük, mühüm nailiyyətlər əldə edilmişdir. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, respublikada sabitlik var, sabitlik olmayan yerdə inkişaf yoxdur. Amma xatırlayaq ki, 90-cı ilin əvvəllərində Azərbaycan dərin iqtisadi böhran şəraitində yaşayırdı. İstehsalın həcmi ildən-ilə azalırdı, Azərbaycanın beynəlxalq aləmdə imici, demək olar ki, çox aşağı səviyyədə idi. Azərbaycana investisiya qoymaq istəmirdilər, heç kim Azərbaycana gəlib onunla əməkdaşlıq etmək istəmirdi. Üstəlik, Qarabağ münaqişəsi, 1 milyondan çox qaçqının öz doğma yurdlarından qovulması və s. kimi problemlər iqtisadi inkişafı məhdudlaşdırırdı. Ulu öndər Heydər Əliyevin qurduğu dövlət bu gün artıq dünyada tanınan, seçilən bir dövlətə çevrilmişdir. Nəyin hesabına? Düşünülmüş siyasət hesabına. Yəni, bu gün İlham Əliyevin prezident kimi son 15 ildə əldə etdiyi uğurlardan saatlarla danışmaq olar. Biz ilk növbədə, dünyada, regionda iqtisadi inkişaf sürətinə görə ən irəlidə gedən ölkələrdən biriyik. Çünki hər bir ölkəni digər ölkələrlə müqayisə etmək lazım gəlir. İstər iqtisadçılar, istər siyasətçilər, istərsə də ekspertlər, müxtəlif peşə sahibləri və ən sadə insanlar belə bilmək istəyirlər ki, ölkələrinin inkişaf səviyyəsi necədir. Biz geri qalırıq, ya irəli gedirik? Bu baxımdan təhlil etsək görərik ki, son 15 il ərzində respublikamız çox irəli gedib. Bu gün Azərbaycan dövləti ilə hesablaşırlar, bu gün ən yüksək beynəlxalq tədbirlər Azərbaycanda keçirilir. Dünyanın aparıcı ölkələri Azərbaycana gəlir. Nə üçün? Təbii ki, sabitlik üçün, burada yaranan əlverişli investisiya, biznes mühiti üçün. Bir faktı qeyd etmək istəyirəm: Azərbaycan iqtisadiyyatına son 15 ildə 230 milyard vəsait qoyulub. Biz irimiqyaslı layihələr həyata keçiririk, Azərbaycan iqtisadiyyatında neft-yanacaq kompleksinin rolu artır. Azərbaycan ərazisindən 2 milyard ton neft çıxarılıb. 1970-ci illərdə bu rəqəm 1 milyard ton idi. 1 milyard ton neft - Azərbaycanın təbii sərvəti dünyaya verilmişdi. Amma Azərbaycan müstəqil deyildi, indi Azərbaycan müstəqildir, özü özünün təbii sərvətlərinin sahibidir.

**(davamı 3-cü səhifədə)**

*Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı*









# Bu gün İran-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir

Martın 28-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.
Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.
Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata bəyanatlarla çıxış ediblər.

* * * * *

Martın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani biznes forumda iştirak ediblər.
Biznes forumdan əvvəl Neftçala Sənaye Məhəlləsi və burada yaradılan “Azərmaş” ASC və “İran Khodro” şirkətinin birgə layihəsi olan avtomobil zavodu barədə videoçarx nümayiş olunmuşdur.
Avtomobil zavodu ilə videobağlantıda “Azərmaş” ASC-nin İdarə Heyətinin sədri Emin Axundov Neftçala Sənaye Məhəlləsində “Azərmaş” ASC və “İran Khodro” şirkətlərinin birgə yaratdığı “Xəzər” avtomobil zavodundan məlumat vermiş, bildirmişdir ki, dəyəri 15 milyon ABŞ dolları və səhmlərinin 75 faizi “Azərmaş” ASC-yə, 25 faizi isə “İran Khodro” şirkətinə məxsus olan avtomobil zavodunda İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunacaq. Bu avtomobillər “Made in Azerbaijan” brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaq.
“İran Khodro” şirkətinin baş icraçı direktoru Haşem Yekke Zarə məlumat vermişdir ki, “Xəzər” avtomobil istehsalı müəssisəsi ilkin mərhələdə - ildə 10 min avtomobilin istehsalı ilə işə başlayacaq.
Sonra dövlət başçılarına videoçarx əsasında bu müəssisənin fəaliyyəti və istehsal prosesi barədə məlumat verilmişdir.
Sonra Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı görülən işlərdən bəhs edən videoçarx nümayiş olunmuşdur.
Dövlət başçıları forumda nitq söyləmişlər.

**Prezident İlham Əliyevin nitqindən:**

İran-Azərbaycan dostluq, qardaşlıq əlaqələri bu gün ən yüksək zirvədədir. Son dörd il ərzində biz on bir dəfə görüş keçirmişik. Bu rəqəm özlüyündə onu göstərir ki, biz nə qədər sıx əməkdaşlıq edirik və bizim aramızda nə qədər qarşılıqlı inam var. Bu da təbiidir. Çünki bizim xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, yaratmışlar. Bizi birləşdirən ortaq tarix, mədəniyyət bugünkü əlaqələrimiz üçün əsas amildir. Bu əlaqələrin bu gün belə sürətlə inkişaf etməsi bizi çox sevindirir.
Siyasi əlaqələr belə yüksək səviyyədə olduğu halda, əlbəttə ki, biz istənilən iqtisadi və nəqliyyat layihələrini icra edə bilərik və bunu da edirik. Biz verdiyimiz bütün tapşırıqlara şəxsən nəzarət edirik. Bu gün İran-Azərbaycan əlaqələri nəinki iki ölkə üçün, region üçün və deyə bilərəm ki, dünya üçün böyük əhəmiyyətə malikdir. Çünki bizim təşəbbüsümüzlə reallaşan layihələr bütün bölgə üçün, Avrasiya qitəsi üçün böyük əhəmiyyət daşıyır.
Biz dünən ticarət əlaqələrinin inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Hesab edirik ki, ticarət əlaqələrinin indiki səviyyəsi bizim əlaqələrimizin səviyyəsini əks etdirmir. Ona görə də bu biznes forumda iştirak edən iş adamlarına tövsiyəm budur ki, daha da sıx əməkdaşlıq aparmalıyıq. Ticarət dövriyyəsinin artırılması üçün praktiki addımlar atılmalıdır. Ümid edirəm ki, gələcək illərdə bizim qarşılıqlı ixracımız da artacaq. Buna nail olmaq üçün



imkanlar var.
Əlbəttə, qarşılıqlı sərmayə qoyuluşu məsələlərinə də böyük diqqət göstərilir. Bu gün bu kiçik təqdimatda qarşılıqlı sərmayə qoyuluşunu əks etdirən iki önəmli layihə göstərildi - Neftçalada “İran Khodro” və Azərbaycan şirkətinin birgə müəssisəsi və İranda Azərbaycan sərmayəsi ilə yaradılan yük terminalı. Qarşılıqlı sərmayələrin qoyuluşu üçün əlbəttə ki, ilk növbədə, gözəl münasibətlər və qarşılıqlı maraqlar olmalıdır. Bunlar var və gündən-günə möhkəmlənir. Biz bu iki layihənin timsalında görürük ki, burada qarşılıqlı maraqlar tam təmin olunur. Əminəm ki, həm avtomobil zavodunun gələcək fəaliyyəti uğurlu olacaq və həm də yük terminalı Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı üçün önəmli rol oynayacaqdır.
Hesab edirəm ki, biz digər sahələrdə də qarşılıqlı sərmayə qoyuluşu haqqında ciddi düşünməliyik, bunu edirik. Dünən həm məhdud tərkibdəki görüşdə, eyni zamanda, nümayəndə heyətlərinin tam tərkibi ilə keçirilmiş görüşdə bu məsələlər müzakirə olundu. Qarşılıqlı sərmayə qoyuluşu üçün əlavə istiqamətlər müəyyən edilməkdədir. Tam əminliklə deyə bilərəm ki, Şimal-Cənub nəqliyyat dəhlizi də İran və Azərbaycan tərəflərinin çox ciddi səyləri hesabına reallaşır. Son iki il ərzində görülən işlər bu yolun açılmasına əsas zəmin yaratmışdır. Kiçik təqdimatda göstərildi ki, 2016-2017-ci illərdə bu dəmir yolunun çatışmayan hissəsi Azərbaycan ərazisində inşa edildi, Astaraçay üzərində körpü salındı. Mən keçən il İranda səfərdə olarkən ilk sınaq qatarı Azərbaycandan İran ərazisinə keçdi. Bu gün isə artıq yük terminalı inşa edilir və dünən tarixi bir sənəd imzalandı. Astara-Rəşt dəmir yolunun tikintisi ilə bağlı müqavilə imzalandı. Bu müqavilə Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşmasında xüsusi rol oynayacaqdır. Beləliklə, biz qitələri birləşdirərək həm iqtisadi mənfəət götürəcəyik, - çünki bizim ərazimizdən keçən tranzit yüklər on milyon tonlarla ölçüləcək, - eyni zamanda, biz bölgədə yeni bir əməkdaşlıq formatını yaradırıq. Bunu artıq yaratmışıq, çünki biz indi nəinki ikitərəfli formatda, üçtərəfli və dördtərəfli formatlarda fəal əməkdaşlıq edirik. 2016-cı ildə Bakıda, 2017-ci ildə isə Tehranda Azərbaycan, İran, Rusiya prezidentlərinin görüşləri keçirilmişdir. Bu görüşlərin çox böyük əhəmiyyəti vardır. Görüşlərdə həm siyasi, həm iqtisadi, həm nəqliyyat, həm enerji məsələləri müzakirə edilmişdir. Hesab edirəm ki, üç ölkənin iş adamları da mövcud olan imkanlardan istifadə etməlidirlər.
Azərbaycan-İran-Türkiyə üçtərəfli əməkdaşlıq formatı artıq neçə ildir ki, fəaliyyət göstərir və bu yaxınlarda Bakıda yeni, dördtərəfli əməkdaşlıq formatı da reallaşıb - Azərbaycan, İran, Gürcüstan və Türkiyə. Burada əlbəttə ki, həm regional təhlükəsizlik, əməkdaşlıq, siyasi məsələlər, qarşılıqlı dəstək müzakirə olunur, eyni zamanda, iş adamları üçün, bir daha demək istəyirəm, geniş imkanlar açılır.
Nəqliyyat sahəsində. İndi Astara-Rəşt dəmir yolunun tikintisi, gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyətə tam başlaması nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılmalıdır və bu iş yerlərini sahibkarlar açmalıdırlar. Ticarət dövriyyəsi əminəm ki, həm ikitərəfli, həm çoxtərəfli formatda kəskin artacaqdır. Energetika sahəsində biznes imkanları genişlənir. Dəmir yolu açılandan sonra təkcə yüklər yox, eyni zamanda, sərnişinlər də daşınacaq. Ona görə də turizm infrastrukturuna böyük investisiyalar qoyulmalıdır.
Biz dünən, eyni zamanda, Xəzər dənizindəki blokların işlənməsi haqqında anlaşma memorandumu imzaladıq. Bu da tarixi əhəmiyyətli qərardır. Ümumiyyətlə, cənab Prezident Ruhaninin Azərbaycana hər bir səfəri böyük əhəmiyyət daşıyır və mənim İrana səfərlərim də həmçinin. Bu səfərlər çərçivəsində bir çox sənədlər imzalanmışdır və onların hamısı reallaşır. Bu səfər də tarixi səfərdir. Çünki bu səfər zamanı iki tarixi sənəd imzalandı - Xəzər dənizindəki bloklarla bağlı sənəd və Astara-Rəşt dəmir yolunun tikintisi. Eyni zamanda, biz dünən cənab Prezidentlə bu günə qədər həll olunmayan məsələlər ətrafında da fikir mübadiləsi apardıq. Bizim bütün görüşlərimiz çox səmərəli və məhsuldardır. Həlli gözləyən məsələlərdən biri də bank və maliyyə sektorlarındakı əməkdaşlıqdır. Biz iranlı qardaşlarımızı görməyimizə həmişə şadıq. Onlar Azərbaycanda həm investor, yəni, sərmayə qoyan, həm də podratçı kimi uğurla fəaliyyət göstərə bilərlər. Bu fəaliyyət üçün bütün imkanlar var. Əsas xalqlarımızın birliyi, dövlətlərarası münasibətlərin ən yüksək səviyyədə olması və bizim təşəbbüsümüzlə reallaşan layihələrin gələcək imkanlarıdır. Biz bölgəmizdə yeni reallıq yaradırıq. İran-Azərbaycan əlaqələri artıq regional təhlükəsizlik, sabitlik, əməkdaşlıq üçün önəmli amilə çevrilibdir. Bunu biz etmişik, özü də qısa müddət ərzində.
Mən bir daha həmkarıma, cənab Həsən Ruhaniyə Azərbaycana göstərdiyi diqqətə, xoş münasibətə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır və biz hamımız bunun şahidi olacağıq.

# Vətənin, xalqın, ordunun şərəf və ləyaqətini qorumaq hər bir vətəndaşın borcudur

Aprelin 3-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib.
25 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar günün aktual məsələlərinə münasibət bildirmişlər.
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirmişdir ki, 25 il ərzində inkişaf yolu keçən Azərbaycan dünya miqyaslı transmilli layihələr həyata keçirir. Bakıda keçirilən beynəlxalq tədbirlərə dünyanın nüfuzlu liderləri qatılır: “Ölkəmizdə aparılan islahatlar, dinamik inkişaf dünyanın əksər ölkələri tərəfindən rəğbətlə qarşılanır. Lakin Azərbaycanın apardığı siyasət bəzi dairələr tərəfindən qısqanclıqla qarşılanır. Belə ki, mənəvi, əxlaqi dəyərlərin nə olduğunu bilməyənlər Azərbaycan dövlətinə, xalqına qarşı əsassız fikirlər səsləndirir. Bu hallara qarşı mübarizə aparılmalıdır. Azərbaycan xalqına qarşı bəzi dairələrin apardığı kampaniyanı hamı pisləyir. Bunların hamısı ötüb keçəcək. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanda xalq-dövlət birliyi təmin edilib, həmrəylik var”.
Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə qeyd etmişdir ki, xaricdə yaşayan bəzi azərbaycanlılar erməni lobbisinin dəstəyi ilə bu gün Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla məşğuldurlar. Fransada belələri Azərbaycanın səfirliyi qarşısında aksiya keçirirlər. Amma onlar bir dəfə də olsun, Ermənistanın səfirliyi qarşısında aksiya keçirməyiblər. Komitə sədrinin sözlərinə görə, vətənə, xalqa qarşı müxalif olmaq olmaz. Bu məsələdə cəmiyyətin fikri yekdil olmalıdır. Hamı mövqeyini bildirməlidir.
Müzakirələr zamanı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Aqrar komitənin sədri Eldar İbrahimov, deputatlardan Fazil Mustafa, Ağacan Abıyev, Novruzəli Aslanov, Elmira Axundova, Hikmət Məmmədov bu məsələ ilə bağlı fikirlərini bildirmişlər. Xaricdə məskunlaşmış bəzi soydaşlarımızın sosial şəbəkələrdə və saytlarda yer alan qeyri-etik çıxışları yolverilməz sayılmış və şiddətlə pislənilmişdir. Çıxışlarda vurğulanmış-



dır ki, Vətənin, xalqın, ordunun şərəf və ləyaqətini qorumaq, milli maraqları və millətin mənafeyini nəzərə almaq siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın borcudur.
Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycan hökuməti ilə Əfqanıstan hökuməti arasında hava əlaqəsi haqqında, sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişləri şərh etmişdir. Parlament hər iki sazişi təsdiqləmişdir.
Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov 2005-ci il 3 may tarixli Qanunla təsdiq olunmuş “Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə”yə təklif edilən dəyişikliklər barədə məlumat vermişdir. Bildirmişdir ki, komissiyanın əsas vəzifələrinə və əsas hüquqlarına dair maddələrə edilən dəyişiklik qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır. Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov “Hidrometeorologiya fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə məsələni təqdim etmişdir.
Gündəlikdəki növbəti dörd qanun layihəsi haqqında bildirilmişdir ki, “Banklar haqqında”, “Kredit büroları haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında” qanunlarda və Mülki Məcəllədə edilən dəyişikliklər 2016-cı ilin oktyabrından etibarən tətbiq olunan “Kredit büroları haqqında” Qanunla əlaqədardır. Səsvermə zamanı deputatlar qanun layihələrinin dördünə də müsbət münasibət bildirmişlər.

# Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi MSK-da akkreditasiyadan keçib

Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında (MSK) akkreditasiyadan keçib. Onlar 58 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır.
Bu barədə sechki-2018.az saytına MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib.
Şahin Əsədli qeyd edib ki, eyni zamanda, indiyədək 56 min 864 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1962-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 54 min 902-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb.
O, həmçinin əlavə edib ki, siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına




5099 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

# İndiyədək TANAP-a yatırılan məbləğ açıqlandı

Azərbaycan qazının Türkiyəyə və buradan Avropaya nəqli üçün inşa olunan Trans-Anadolu Boru Kəməri (TANAP) layihəsində Azərbaycanın payının maliyyələşdirilməsi üçün indiyədək “Cənub Qaz Dəhlizi” QSC tərəfindən 3,56 mlrd. ABŞ dolları məbləğində vəsait yönəldilib.



Bu barədə QSC-dən bildirilib.
Məlumata görə, bu il fevralın sonunadək ümumilikdə tərəfdaşlarla birgə TANAP-a sərf olunan vəsaitin məbləği isə 5,3 mlrd. dollar təşkil edib. TANAP-ın ümumi dəyəri 8 mlrd. dollardır.
Qeyd edək ki, “Cənub Qaz Dəhlizi” QSC Azərbaycan Prezidentinin “Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında” 2014-cü il 25 fevral tarixli sərəncamı əsasında yaradılıb. QSC-nin səhmlərinin 51%-i dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49%-i isə SOCAR-a məxsusdur. “Cənub Qaz Dəhlizi” QSC Cənub Qaz Dəhlizi beynəlxalq qaz layihəsində Azərbaycanın maraqlarını təmsil edən şirkətdir.
Cənub Qaz Dəhlizi layihəsinin bir qolu olan TANAP Türkiyə ərazisində inşa olunur. TANAP-ın təməli 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə qoyulub. Bu kəmərlə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin II mərhələsi çərçivəsində hasil olunan qazın nəqli nəzərdə tutulur. Boru kəmərinin ilkin buraxılış gücü ildə 16 mlrd. kubmetr olacaq. Bu həcmin, təxminən 6 mlrd. kubmetri Türkiyəyə, qalanı isə Avropaya nəql ediləcək. TANAP kəmərinin Türkiyədə Əskişəhər və Trakyada iki çıxış nöqtəsi olacaq. Türkiyədə qazın satışını BOTAŞ şirkəti həyata keçirəcək. Boru kəmərinin ümumi uzunluğu 1 850 km-dir. TANAP-ın Əskişəhərə qədər hissəsinin bu ilin ortalarında istifadəyə verilməsi gözlənilir.
Layihədə Azərbaycan 58%, BOTAŞ 30%, BP 12% paya malikdir.

# Azərbaycan Respublikasının Prezidentinə səs vermək xalqımızın xoşbəxt gələcəyinə, dövlətimizin müstəqilliyinin güclənməsinə səs vermək deməkdir

**(əvvəli 1-ci səhifədə)**

Mən fürsətdən istifadə edib qeyd etmək istəyirəm ki, Azərbaycan neftçilərinə, Azərbaycan yanacaq energetika kompleksində çalışan insanlara eşq olsun ki, onların fədakar əməyi nəticəsində biz bu gün ölkəmizin iqtisadi dirçəlişi üçün möhkəm baza yaratdıq. Cənab prezident Azərbaycanda 2 milyard ton neft hasilatı ilə əlaqədar keçirilən tədbirdə dedi ki, biz heç vaxt belə güclü olmamışıq. Bizim iqtisadi müstəqilliyimizin kökündə neftçilər və neft sənayəsi dayanır. Ona görə də biz bundan sonra da neft sənayəsini inkişaf etdirəcəyik. Ulu öndər Heydər Əliyev neftdən gələn gəlirlərin səmələri istifadəsi üçün Neft fondu yaratdı. Bizim indi valyuta ehtiyatlarımız 40 milyarddan çoxdur, neftin qiyməti aşağı düşsə də, biz heç bir ölkəyə borc almaq üçün müraciət etmədik. Çünki bizim artıq kifayət qədər valyuta ehtiyatlarımız var idi. İndi ulu öndər Heydər Əliyevin qurduğu dövlətin mahiyyəti, gücü ondadır ki, biz dünyada qlobal böhran şəraitində inkişafımızı təmin etdik. Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətin ən başlıca mənbəyi xalqdır, bu siyasətin məqsədi xalqın vəziyyətini yaxşılaşdırmaqdır. 90-cı illərin əvvəllərində Azərbaycan əhalisi nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir, müqayisə edək. Əməkhaqqının artırılması, sosial problemlərin həlli, məşğulluğun artırılması, yoxsulluğun azaldılması istiqamətində görülən tədbirlər - bunlar hamısı göz qabağındadır. 2001-ci ildə Azərbaycanda yoxsulluq 49 faiz idi, əhalinin yarısı yoxsulluq şəraitində yaşayırdı. Bu gün Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizdir. Təbii ki, problemlər var. Dünyanın inkişaf etmiş ölkələrində belə işsizlik var, nisbətən aşağı səviyyədə yaşayanlarda olur, amma bunlar ildən-ilə azalırsa, deməli, bu məsələ dövlətin iqtisadi siyasətinin mahiyyətini təşkil edir. Cənab prezidentin son 15 il ərzində əldə etdiyi ən böyük uğurlardan biri regionlarda sosial-iqtisadi inkişafın sürətlənməsidir. 2004-cü ilin fevral ayında cənab prezident regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar proqrama imza atdı. Bu proqram nə üçün idi? Respublikanın bütün əraziləri sistemli inkişaf etsin, tarazlı inkişaf etsin, sosial-iqtisadi inkişaf səviyyəsinə görə regionlar arasında ciddi fərq olmasın. Bu gün istər qatar, istər avtobus, istərsə də şəxsi maşınla Azərbaycan sərhəddinə getdikcə ürəyim sevinclə dolur, çünki hər yanda gözəl yollar, binalar, məktəblər tikilib. Son 15 il ərzində Azərbaycanda 3100 məktəb təmir olunub, tikilib. Dünyada ən böyük problemlərdən biri su problemidir. Azərbaycan həmişə su uğrunda mübarizə aparıb, həmişə Azərbaycan xalqı içməli su problemi ilə üzləşib. Bizim təbii sərvətlərimiz var, sularımız var, amma Azərbaycan ərazisində toplanan suyun miqdarı, həcmi tələb olunandan xeyli azdır. Bizə içməli suyun balansını təkmilləşdirmək, əhalini təmiz içməli su ilə təmin etmək lazımdır. Mən səmimiyyətlə və qətiyyətlə bildirirəm ki, bu, çox müqəddəs bir işdir. Su varsa, həyat var, su yoxdursa, həyat yoxdur. Ona görə də Azərbaycan rayonlarında içməli su ilə əlaqədar həyata keçirilən proqramlar, layihələr Azərbaycan xalqının xoşbəxt gələcəyi üçündür.

40-50-ci illərin arxiv materiallarını araşdırarkən mən bizim nə qədər çətinliklərimizin olduğunu görürəm. Eləcə də yollar - tarix boyu yollar uğrunda mübarizə gedib. Tarix boyu hər bir dövlət çalışıb ki, onun ərazisində yolları yaxşı olsun. Azərbaycanda son 15 ildə 12000 km-dən çox avtomobil yolu salınıb. Ən böyük uğurlardan biri isə qazlaşmadır. Biz təbii qaz istehsal etsək də, uzun müddət bizdə qazlaşma aşağı səviyyədə idi. Ulu öndər Heydər Əliyevin qurduğu siyasət ona imkan verir ki, biz qazlaşma prosesini sürətlə artıraq. Cənab prezident elan etmişdi ki, artıq bizdə qazlaşma 93 faizdir. Bir müddətdən sonra qazlaşmanın səviyyəsi 100 faizə qalxacaq. Bu o deməkdir ki, neft və yanacaq sərvətləri həm xaricə satılır, həm də xalqın güzəranının yaxşılaşdırılmasına sərf olunur. Eləcə də elektrikləşmə. İşıq varsa, su varsa, qaz varsa, yollar varsa, təhlükəsizlik təmin olunursa, sabitlik təmin olunursa, bunlar hamısı dövlət başçısının bilavasitə fəaliyyətidir. Qonşu ölkələrə baxaq, dünyanın ən varlı ölkələrindən biri Liviya, dünyanın ən gözəl,yaraşıqlı və dinamik ölkələrindən biri Suriya, yaxud Misir, İraq... Nə qədər problemlər yarandı bu ölkələrdə. Amma Azərbaycan Respublikasının Prezidenti dünyaya bəyan etdi ki, islam həmrəyliyi konfransı keçiririk. 2017-ci il "İslam həmrəyliyi ili" olsun. Bu, bütün islam ölkələrinə bir mesaj verdi ki, gəlin, bir olaq, biz inkişaf etməliyik, inkişafdan geri qalmamalıyıq. Bu gün Azərbaycan dövlətinin son 15 ildə qazandığı uğurlar bütün sahələrdədir. Elm, təhsil, səhiyyə, mədəniyyət, idman - bunlar hamısı Azərbaycan dövlətinin Prezidenti İlham Əliyevin siyasətinin mühüm istiqamətləridir. Azərbaycan xalqı dünya xalqları içərisində özünü möhkəm hiss etsin, inkişaf etsin, problemlərimiz olmasın. Ona görə mən ulu tanrıdan bu dövlətə uğurlar arzu edirəm. Ulu tanrı bizim dövlət başçımızı qorusun, Mehriban xanımı qorusun. Çünki həm Prezident İlham Əliyev, həm də Mehriban xanım böyük layihələrə imza atıblar. Dünya artıq bizimlə çox istiqamətdə hesablaşır. Buraya daha əvvəl gələn qonaqların çıxışlarını izlədim. Mən iqtisadçıyam, məqalələr və kitablar yazıram, çıxışlar edirəm. Hər dəfə də yeni mənbələrə müraciət edirəm. Cənab prezident respublikanın regionlarını gəzir, rayonlarda olur. Rayonlarda olarkən müvafiq icra strukturları daha da məsuliyyət hiss edirlər ki, mən tapşırılan vəzifəni həyata keçirmək üçün bütün qüvvəmi səfərbər etməliyəm. Bu gün Azərbaycan kəndində qaynar həyat var. Pambıqçılıq, taxılçılıq, heyvandarlıq, baramaçılıq, çayçılıq - bütün bunlar Azərbaycanın sərvətləridir. Bu əməksevər xalq seçilən xalqdır, onların yaratdığı əsərlər dünyaya yayılıb.



"Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışı



**- Aparıcı: Ziyad müəllim, sualımıza çox ətraflı cavab verdiniz. Buna görə sizə təşəkkür edirəm. Geridə qoyduğumuz 15 ildəki bütün uğurlardan danışdıq. Təbii ki, bu da ölkə başçısının uğurlu siyasətinin nəticəsidir. Növbəti sualım seçkilərlə bağlı olacaqdır. Bildiyimiz kimi, YAP seçkilərə "İlhamla irəli" şüarı ilə qatılıb. Bununla bağlı nə deyə bilərsiniz?**

- Dünyanın bütün ölkələrində seçkilər keçirilir. Prezident seçkiləri, dövlət başçısının seçimi həmişə gündəmdə olan məsələyə çevrilir, çünki xalq bilməlidir ki, taleyini kimə bağlayır. Xalq bilməlidir ki, ən ağır dəqiqələrdə onu qoruyan dövlət başçısı hansı tədbirlər görəcək. Bu baxımdan Azərbaycanda da seçkilərə böyük maraq var. Nəinki Azərbaycanda, dünyada da maraq var. Bizi istəyənlər dua edirlər ki, Allah bu dövləti qorusun, təbii ki, istəməyənlər də var. Ümumiyyətlə, dünyada Azərbaycana qarşı qısqanclıq həmişə olub. Azərbaycan dövləti inkişaf edir. Elə Azərbaycana haqsız iddialar irəli sürən Ermənistanla sosial-iqtisadi inkişafımızı müqayisə edək. Nə qədər ciddi fərqlər var. Bu da, əlbəttə ki, ölkəmizdə aparılan düşünülmüş iqtisadi siyasətin, ölkənin iqtisadi, milli və sosial təhlükəsizliyinin, müdafiə qabiliyyətinin artırılmasının nəticəsidir. Ona görə prezident seçkilərinə hamımız böyük maraqla yanaşırıq. Mən əminəm ki, Azərbaycan xalqı seçimini edib. Çünki Azərbaycan xalqının tarixində bu, böyük şansdır ki, İlham Əliyev Azərbaycan Respublikasının prezidentidir. Onun bir məqsədi var ki, Azərbaycan dünyada dinamik, keyfiyyətli, sürətlə inkişaf edən bir ölkəyə çevrilsin və çevrilib də. Mən əminəm ki, YAP-ın irəli sürdüyü namizəd bu seçkilərdə qalib olacaqdır. Azərbaycan Respublikasının Prezidentinə səs vermək bizim xalqımızın xoşbəxt gələcəyinə səs vermək deməkdir.

Mən bu günlərdə bir neçə yerdə çıxış etdim və onda da qeyd etdim ki, analarımızın xoşbəxtliyi, övladlarımızın gələcəyi, gənclərimizin sağlam düşünə bilməsi, Azərbaycanımızın bərəkətli torpağının qorunması, qloballaşan dünyada risklərin artdığı bir şəraitdə ölkəmizin ayaq üstə möhkəm durması üçün cənab Prezidentimiz İlham Əliyevə səs verməliyik. Hər bir dövlətdə problemlər var, seçkilər ərəfəsində suallar verirlər, bəzi insanlar hətta çətinliklər yaradırlar. Onlar dərk etməlidirlər ki, hər kəs bu xalq üçün çalışır. Cənab prezidentimiz özü də qeyd edir ki, mən hər bir vətəndaşın prezidentiyəm. Ona görə mən tam əminəm ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyevin apardığı siyasət dünyanın tərəqqipərvər qüvvələri tərəfindən də müsbət qarşılanır. Xalqımız da bunu 11 aprel tarixində bir daha nümayiş etdirəcək. İlham Əliyev ən yüksək səslə xalqın etimadını qazanacaq və Azərbaycan Respublikasının növbəti dəfə prezidenti seçiləcək. Nə üçün? Çünki irəlidə böyük hədəflər var.

**- Növbəti sualım elə qarşıdakı 7 illik hədəflərlə bağlıdır. Hədəflərimiz nə olacaq?**

- Cənab prezidentin hər bir çıxışında bu və ya digər məsələ ilə əlaqədar olaraq hədəflər müəyyənləşdirilmişdir, o hədəflərlə bağlı məsələlər qoyulmuşdur. Uzağa getməyək, Azərbaycan zəngin kənd təsərrüfatı məhsulları istehsal edən bir ölkədir. Hər bir dövlət indiki şəraitdə özünün ərzaq təhlükəsizliyini təmin etməyə çalışır. Cənab prezident artıq bu vəzifəni müəyyən edib ki, biz qısa zaman kəsiyində Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyini təmin etməliyik. Bunun üçün respublikada həyata keçirilən işlər miqyasına, əhatə dairəsinə və investisiya tutumluluğuna görə çox fərqlənir. Kənd təsərrüfatına dövlət dəstəyi artır, ənənəvi sahələrin, yəni pambıqçılığın, üzümçülüyün, heyvandarlığın üstün inkişafı istiqamətində konkret addımlar atılır ki, bunlar da göz qabağındadır.

**Qeyri-neft sektorunun inkişafı** ilə bağlı hədəflərimiz nədən ibarətdir? Güclü sənaye siyasəti yeridək, emal müəssisələrimizin sayını artıraq. Azərbaycanda 38 aqropark yaradılacaq. Bu aqroparkların yaradılması nə deməkdir? Orada yeni iş yerləri yaradılacaq, məhsul istehsalı artırılacaq, əkinçilik mədəniyyəti yüksələcək, ixrac potensialı artırılacaq. Hədəflərdən biri **elmin, səhiyyənin, təhsilin inkişafıdır**. Hər bir insan istəyir ki, səhiyyə göstəriciləri yaxşı olsun, uşaq ölümləri, xəstəliklərin sayı azalsın, əhaliyə səhiyyə xidməti keyfiyyətli olsun, dispanserizasiya aparılsın. Hədəflərdən digəri də odur ki, ordumuz gücləndirilsin. Ordumuz hal-hazırda regionda ən güclü ordudur, çalışmaq lazımdır ki, yenə də güclənsin və lazım gələrsə, Azərbaycan torpaqlarını silah gücünə alsın. "Aprel döyüşləri" buna nümunə oldu. Yəni, hədəflər həddən artıq çoxdur, konkretdir. Bu konkret hədəflərin hər biri müvafiq strukturlar üçün fəaliyyət proqramıdır. Seçkilərdən sonra bu hədəflər daha da konkretləşəcək. Ən başlıcası odur ki, Azərbaycan yaxın vaxtlarda dünyanın inkişaf etməkdə olan ölkələri arasında qabağa gedəcək ki, sonra da biz ən inkişaf etmiş ölkələr sırasında olaq. Mən cənab prezidentə möhkəm cansağlığı arzu edirəm. Azərbaycan xalqının xoşbəxtliyi naminə hamımız "İlham Əliyevlə irəli" şüarını əsas tutub 11 apreldə ona səs verməliyik.

**- Əminik ki, belə də olacaq. Son olaraq, Ziyad müəllim, bu gün Azərbaycan seçicisinə bir ziyalı olaraq nə demək istərdiniz?**

- Mən üzümü Azərbaycan seçicisinə tutub deyirəm ki, bu qədər inkişafı təmin edən qüvvə var. Bu inkişafın müəyyənləşdirici qüvvəsi ölkə başçısıdır, dövlət başçısının müəyyən etdiyi siyasətdir.

Yenə də deyirəm, biz hamımız Azərbaycan xalqının gələcəyi, dövlətimizin bundan sonra da daha güclü olması, sabitlik və sakitlik naminə 11 apreldə seçkilərə gedib cənab prezidentə səs verək. Azərbaycan heç vaxt indiki kimi güclü olmamışdır. Sosial sahənin inkişafına, əhalinin səhiyyə və təhsilinin inkişafına bu qədər diqqət ayrılmamışdır.

İlham Əliyev keçən prezident seçkilərində də qeyd etmişdir ki, "mən Heydər Əliyev siyasətinə sadiqəm, hər bir vətəndaşın prezidenti olmağıma söz verirəm". Mən hər birinizi seçkilərə dəvət edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bundan sonra da daha böyük uğurlara imza atacağıq.

**- Təşəkkür edirəm, Ziyad müəllim.**

# Əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunmuş, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilmişdir.
Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulandı, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edilmişdir.
Belarusun Baş nazirinin müavini Gəncə traktor zavodunda 10 mininci traktorun yığılmasının əlamətdar bir hadisə olduğunu vurğulayaraq, Azərbaycan ilə Belarusun bu birgə məhsulunun üçüncü ölkələrə ixrac edilməsi imkanlarının araşdırılmasının önəmini qeyd etmişdir.

**Gəncə Avtomobil Zavodunda 10 mininci traktor konveyerdən çıxıb**

Bu münasibətlə aprelin 2-də "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyində tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko, müavin köməkçisi Sergey Veliyev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Gəncə Avtomobil Zavodunun direktoru, Milli Məclisin deputatı Xanlar Fətiyev, "Minsk Traktor Zavodu" ASC-nin baş direktoru Fyodor Domatenko, "Minsk Avtomobil Zavodu" ASC-nin direktoru Dmitri Kateriniç, Belarusun Gürcüstandakı səfiri Mixail Miyatnikov iştirak ediblər.
Qonaqlar əvvəlcə müəssisədə yaradılan istehsal və əmək şəraiti, eləcə də traktorların yığım prosesi ilə yaxından tanış olub, zavodun istehsal etdiyi texnikalara baxış keçiriblər. Bir sıra texnikaların istehsal perspektivlərini müzakirə edən qonaqlar və zavod rəhbərliyi gələcək layihələr barədə fikir mübadiləsi aparıblar.
Belaruslu qonaqlara məlumat verilib ki, əsası 1986-cı ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi uzun müddət fasilədən sonra 2004-cü ildə yenidən fəaliyyətə başlayıb. 2007-ci ilin mart ayına qədər müəssisədə "OKA", "UAZ", "ÇAN QAN" markalı avtomobillərin yığımı həyata keçirilib.
2006-cı ilin oktyabrında Prezident İlham Əliyevin Belarus Respublikasına səfəri zamanı bağlanmış ikitərəfli müqavilə çərçivəsində "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə Minsk Traktor Zavodu və Minsk Avtomobil Zavodu arasında birgə əməkdaşlığa başlanılıb.
Müəssisənin Belarusla əlaqələri təkcə traktor və avtomobillərin yığılması ilə yekunlaşmır. 2007-ci ildə sentyabrında Belarusun "Dorelektromaş" və "Smorqon aqreqat zavodu" ilə razılığa əsasən, "Belarus" traktorları bazasında asma avadanlığın yığılmasına başlanılıb. 2009-cu ildə "Moqilyovtransmaş" ASC ilə müqavilə imzalanıb və 25 tonluq avtokranların yığılması həyata keçirilib. 2013-cü ildə "Minsk təkərli dartıcılar" zavodu ilə bağlanmış ikitərəfli müqaviləyə əsasən 2014-cü ildən dartıcı avadanlıqların istehsalına başlanılıb. İkitərəfli əməkdaşlıq çərçivəsində Gəncə Avtomobil Zavodunda "MAZ" avtomobillərinin və traktorların yığımı hazırda da davam etdirilir.
Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Gəncə Avtomobil Zavodunun istehsal potensialının artmasının həm şəhərin, həm də respublikamızın iqtisadi inkişafı üçün böyük töhfə olduğunu deyib. Bildirilib ki, Minsk Avtomobil Zavodu ilə bağlanmış müqavilə şərtlərinə uyğun olaraq, 2007-ci il martın 27-də GAZ-da ilk "Belarus" traktoru, bu gün isə 10 mininci traktor konveyerdən çıxıb.
Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko çıxışında ölkələrimiz arasında əlaqələrin öz dinamikliyi ilə fərqləndiyini qeyd edib. Gəncə Avtomobil Zavodu ilə Minsk Traktor və Avtomobil zavodları arasında əməkdaşlığın ildən-ilə inkişaf etdiyini bildirən nazir müavini bu müəssisələrin üçüncü ölkələrə texnikaların ixrac edilməsi istiqamətində yeni layihələr üzərində işlədiyini diqqətə çatdırıb.
"Gəncə Avtomobil Zavodunda yığılan 10 min "Belarus" traktoru, təxminən 3 minə yaxın "MAZ" yük maşını əməkdaşlığın bu formasının özünü doğrultduğunu göstərən real rəqəmlərdir. Bu il imzalanan ikitərəfli strateji əməkdaşlıq memorandumları yaxın vaxtlarda müəssisələr arasında daha sıx iş birliyinin olacağından xəbər verir", - deyə V.Semaşko əlavə edib.
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov çıxışında Gəncə Avtomobil Zavodunda 10 mininci traktorun konveyerdən çıxmasına həsr edilən tədbirin ölkə iqtisadiyyatının inkişafının göstəricisi olduğunu bildirib. Bu uğurlu əlaqələrin təməlində Prezident İlham Əliyevin 2006-cı ildə Belarusa səfəri zamanı bağlanan ikitərəfli müqavilənin dayandığını deyən Yaqub Eyyubov Azərbaycan iqtisadiyyatının yüksək templə inkişaf etdiyini vurğulayıb.
Gəncə Avtomobil Zavodunun direktoru Xanlar Fətiyev müəssisədə həyata keçirilən müştərək layihələrin səmərəli nəticələr verdiyindən məmnunluq ifadə edərək deyib ki, Belarus zavodları ilə qarşılıqlı faydalı əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

# PROKON SOCAR karbamid zavodunun tikintisini yekunlaşdırır



Nobel Oil Services şirkətinin tikinti və layihələrin idarə edilməsi sahəsində törəmə müəssisəsi olan PROKON, SOCAR karbamid zavodunda aparılan tikinti işlərini yekunlaşdırıb və hazırda zavodda son buraxılış-sazlama işləri həyata keçirilir.
Şirkətdən Trend-ə verilən məlumata görə, PROKON mühüm əhəmiyyət kəsb edən SOCAR karbamid zavodunun tikinti layihəsi çərçivəsində layihənin baş podratçısı Samsung Engineering Co., Ltd. ilə əməkdaşlıq edərək, tikinti işləri üzrə əsas podratçı qismində çıxış edib. Bakıdan 35 km şimalda yerləşən zavod vahid kompleks olaraq zəngin təbii qaz ehtiyatlarını xammal kimi istifadə edərək gündəlik 1,200 metrik ton ammiak və 2,000 metrik ton karbamid istehsalı üçün nəzərdə tutulub.
Zavodda ammiak istehsalı qurğuları, karbamid istehsalı qurğuları və karbamid üçün daşınma qurğularının tikintisi və quraşdırılması tamamlanıb, zavodun istismara verilməsi üçün buraxılış-sazlama işləri davam etdirilir. PROKON bu layihə çərçivəsində aşağıdakı işləri həyata keçirmişdir: torpağın qazılaraq çıxarılması (120,380 $m^3$), torpağın təkrar doldurulması (55,800 $m^3$), beton işləri (51,500 $m^3$), tikinti (7,587 $m^2$), boruların istehsalı və montajı işləri (371,410 WDI), çənlərin quraşdırılması (ümumi tutumu 31,130 $m^3$ olan 16 çən), metal-polad konstruksiyaların montajı (7,560 ton), elektrik kabellərin çəkilişi (591,328 m), nəzarət-ölçü cihazları üçün kabellərin çəkilişi (446,613 m), boya işləri (125,000 $m^2$) və bütün digər müvafiq işlər.
Böyük Britaniyada qeydiyyatdan keçmiş Nobel Oil Services şirkətinin tikinti və layihələrin idarə edilməsi üzrə törəmə müəssisəsi kimi, 2012-ci ildə Azərbaycanda yaradılan PROKON qısa müddətdə tikinti sənayesində genişmiqyaslı layihələr icra edən aparıcı yerli şirkətlərdən birinə çevrilib.
PROKON həm əməliyyat, həm də maliyyə fəaliyyətində ən yüksək standartlara riayət edir.
PROKON, eləcə də Nobel Oil şəffaf maliyyə fəaliyyətinə görə Vergilər Nazirliyi tərəfindən "Şəffaf vergi partnyoru" statusuna layiq görülüb.

# Azərbaycan sahibkarlarının Vergilər Nazirliyinə ünvanladığı təkliflərə 1 ay ərzində baxılacaq



Bunu jurnalistlərə vergilər nazirinin müavini Sahib Ələkbərov deyib.
O, vergi ödəyicilərinin təkliflərinin hansı məsələlərlə bağlı olduğunu da açıqlayıb:
"Təkliflər əsasən nağdsız ödənişlər, sənədlərin verilməsi, vergi inzibatçılığı, vergi qanunvericiliyi ilə bağlıdır. Bu təkliflərin hər birinə diqqətlə yanaşacağıq. Bir ay ərzində bu təklifləri araşdırıb müvafiq instansiyalara təqdim edəcəyik və parlamentdə büdcə paketi ilə birlikdə baxılacaq".

# "Sahibkarların vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı Vergilər Nazirliyinə təqdim etdikləri təkliflərə baxılır"

Bunu vergilər nazirinin müavini Sahib Ələkbərov deyib. Onun sözlərinə görə, hazırda sahibkarların təklifləri ilə bağlı nazirlik tərəfindən araşdırmalar aparılır.
"Təkliflər əsasən ilk növbədə nağdsız ödənişlərlə, bu və ya digər əməliyyatların aparılması zamanı verilən sənədlərlə, vergi qanunvericiliyində müəyyən dəyişikliklərin aparılması, inzibatçılıqda müəyyən dəyişikliyin olması ilə bağlıdır.
İnzibatçılığın sadələşdirilməsini istəyən kifayət qədər vergi ödəyiciləri var və bu istiqamətdə müəyyən işlər aparılır.
Bu təkliflərin hər birinə diqqətlə yanaşılır və bundan sonra da yanaşılacaq. Bir ay ərzində biz bu təklifləri emal edəcəyik və təklifləri aidiyyatı üzrə müvafiq orqanlara öz rəylərini bildirmələri üçün təqdim edəcəyik. Razılaşdırmalardan sonra bu təkliflərə Milli Məclisdə büdcə zərfi ilə birgə baxılacaq", - deyə S.Ələkbərov vurğulayıb.

# Bakı-Tbilisi-Qars dəmir yolu ilə ilkin mərhələdə 1 milyon sərnişinin daşınması nəzərdə tutulub



Bu barədə Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan deyib.
O bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolu yalnız yükdaşımalarda deyil, həmçinin turizmin inkişafında da böyük rol oynayacaq. BTQ ilə ilkin olaraq 1 milyon, növbəti illərdə isə 3-3,5 milyon sərnişin daşınması planlaşdırılır:
"Qatarla səyahət tarixən məvcud olub. Bu marşrut təyyarə ilə səyahəti yox, gəzərək görməyi sevən turistlər üçün gözəl imkandır".

# Vergilər Nazirliyi istedadlı gənclərin işə qəbulunda çox maraqlıdır

"Vergilər Nazirliyi istedadlı gənclərin işə qəbulunda çox maraqlıdır və bu istiqamətdə işlər aparır".
Bu sözləri vergilər nazirinin müavini Sahib Ələkbərov jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, hələ 4 il əvvəl Təhsil Nazirliyi tərəfindən xüsusi istedadlı tələbələrdən ibarət SABAH qrupları ilə bağlı həyata keçirilən layihə istedadlı gənclərin gələcək taleyinin daha səmərəli inkişafına xidmət edəcək.
"Bu gün vergi orqanlarında çalışanların əksəriyyətini test imtahanlarında uğurla imtahan verib qəbul olunan gənclər təşkil edir. Onlar rəhbər vəzifələrə irəli çəkilirlər. Biz gələcəkdə də bu meylləri davam etdirmək niyyətindəyik. Bu həm də Azərbaycan iqtisadiyyatının inkişafına bir töhfə olacaq. Yaxın gələcəkdə biz bu layihənin nəticələrini görə biləcəyik", - deyə nazir müavini vurğulayıb.
Vergi orqanında ciddi kadr axınının olmadığını söyləyən S.Ələkbərov bildirib ki, nazirlikdə işə qəbul əsasən Dövlət İmtahan Mərkəzi ilə birgə test imtahanı vasitəsilə həyata keçirilir və təqribən 100-ə yaxın işçi nazirlik sistemində işə cəlb olunub.
Nazir müavini diqqətə çatdırıb ki, vergi orqanları SABAH qruplarında iqtisadi sahəni seçmiş tələbələrə artıq öz əməkdaşları kimi baxır. Gənclər vergi orqanlarında təcrübə keçəcək, nazirliyin təcrübəli mütəxəssisləri onların tədris prosesində bilavasitə iştirak edərək, praktik işlə məşğul olmağa hazırlayacaqlar.

# İpoteka kreditləri üzrə sığorta tarifləri endiriləcək

Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) təşkilatçılığı ilə həyat sığorta şirkətlərinin İpoteka və Kredit Zəmanət Fondu ilə görüşü baş tutub.
ASA-dan verilən məlumata görə, görüşdə ASA-nın sədri Mustafa Abbasbəyli, sığorta şirkətlərinin rəhbər şəxsləri və İpoteka Fondunun rəhbərliyi iştirak edib.
İpoteka Fondunun "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 27.1-ci maddəsinə dəyişiklik təşəbbüsü ilə çıxış etməsi görüşün əsas müzakirə mövzusu olub. Məsələ ilə bağlı tərəflər öz mövqelərini ifadə edib və məsələnin hər iki tərəfi qane edəcək şəkildə həll olunması istiqamətində təkliflər irəli sürülüb. Görüşün yekunu olaraq, sığortaçıların ipoteka kreditləri üzrə sığorta tariflərinin endirilməsi barədə razılığa gəlinib.
Növbəti görüşdə bununla bağlı görüləcək tədbirlərin ətraflı müzakirə olunması qərara alınıb.
Qeyd edək ki, İpoteka Fondunun Qanuna dəyişiklik təşəbbüsü ilə əlaqədar ASA-nın təşkilatçılığı ilə həm rəhbərlik səviyyəsində, həm də işçi qrupu səviyyəsində görüşlər keçirilib. Bu görüşlərin nəticəsi olaraq sığortaçıların Fondla görüşü təşkil olunub.

# Biznes-inkubatorlar kiçik sahibkarlığın inkişafında uğurlu platformadır



Martın 30-da İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə "Biznes-inkubatorlar kiçik sahibkarlığın inkişafında uğurlu platformadır" mövzusunda tədbir keçirilib.

Tədbirdə dövlət orqanlarının və ali təhsil müəssisələrinin, texnoparkların, biznes-inkubatorların iştirakçıları, startap nümayəndələri və bu sahədə ixtisaslaşmış ekspertlər iştirak edib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə davam etdirilən uğurlu iqtisadi siyasətin prioritet istiqaməti kimi sahibkarlığın inkişafının təmin edilməsi üçün həyata keçirilən kompleks tədbirlər, sistemli və ardıcıl islahatlar barədə məlumat verib. Sahib Məmmədov biznes-inkubatorların yaradılması və inkişaf etdirilməsi, innovasiyayönümlü startap layihələrinin dəstəklənməsi və ümumilikdə innovativ sahibkar düşüncə tərzinin formalaşdırılması istiqamətində görülmüş işlər, o cümlədən keçirilən treninq və seminarlar, müsabiqələr barədə məlumat verib.

Nazir müavini bu sahədə aparılan işlərə sistemli yanaşmanın təmin edilməsi və diqqətin daha da artırılması üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin Tədbirlər Planı"nın icrası ilə bağlı görülən işləri diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov agentliyin və onun tərkibində Kiçik və Orta Sahibkarlıq evlərinin yaradılmasının sahibkarlığın, eləcə də biznes-inkubatorların inkişafında, startapların dəstəklənməsində rolundan danışıb. O.Məmmədov bu sahədə müasir idarəçiliyin tətbiqi, institusional dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının xidmətlərinin "vahid məkan" prinsipi əsasında təşkilinin kiçik və orta sahibkarlığın rolunun və rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyətini vurğulayıb.

Biznes-inkubatorların və startapların nümayəndələri çıxış edərək öz fəaliyyətləri, həyata keçirilən innovativ layihələr və yeni biznes imkanları barədə danışıb, tədbirin biznes-inkubatorları arasında əməkdaşlığın genişləndirilməsi, eyni zamanda, startaplar tərəfindən reallaşdırılan innovativ layihələrə potensial investorların cəlb olunması baxımından önəmini qeyd ediblər.

Tədbirdə bir sıra startaplar, o cümlədən "RainEnergy", "Apd Voice", "Lean Consulting", "Qss-Analytics", "Join B2B", "MrBee", "CO2Catalyser", "Mirvari store", "Parking App" və digər layihələr haqqında təqdimatlar edilib.

# Azərbaycanlı iş adamları Manqistau vilayətində zavod tikirlər

Qazaxıstanın Manqistau vilayətində üç yeni istehsalat müəssisəni birləşdirən zavod bu ilin sonunda fəaliyyətə başlayacaq.

Azərbaycanlı iş adamlarının "AktauEnerqoMaş" şirkətinin "Aktau Morport"da xüsusi iqtisadi ərazidə tikdiyi bu zavod üç müəssisədən ibarətdir.

Zavodun tikintisinə 50 milyon ABŞ dolları ayrılıb və hazırda tikinti ilə bağlı əsas işlər görülüb başa çatmaq üzrədir.

Müəssisələrdən biri kabel məhsulları və transformatorlar istehsal edəcək. İllik təxminən 250 transformatorun istehsalı nəzərdə tutulan zavodun məhsullarının tək daxili bazar üçün deyil, bir sıra MDB dövlətlərinə idxalı nəzərdə tutulub.

Zavodun digər müəssisəsi polimer qablaşdırmanın istehsalı ilə məşğul olacaq və ildə təxminən dörd yüz ton plastik qab və konteyner istehsal ediləcək.

Bundan başqa, şəhərin sənaye ərazisində yerləşəcək digər müəssisədə mebel və plastik pəncərələr istehsal ediləcək.

Zavodda iki yüz adamın işlə təmin olunacağı nəzərdə tutulub.



# Atəşgah Həyat SŞ ASC-nin 01 yanvar 2018-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 4 927 295,11 | 4 860 705,82 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 456 298,15 | 441 898,90 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 100 000,00 | 100 000,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 100 000,00 | 100 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | 54 974,06 |
| *Cəmi uzunmüddətli aktivlər* | 5 483 593,26 | 5 457 578,78 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | 3 232 906,50 | 3 733 707,20 |
| birbaşa sığorta üzrə | 2 405 617,67 | 2 371 520,99 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 107 104,47 | 11 909,44 |
| - təkrarsığortaçı üzrə | 99 245,93 | 4 050,90 |
| - təkrarsığortalı üzrə | 7 858,54 | 7 858,54 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 204 807,29 | |
| iddia tələbləri üzrə | 475 960,40 | 1 331 573,41 |
| işçi heyəti üzrə | 3 250,00 | 200,00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 36 166,67 | 18 503,36 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 65 221 388,22 | 34 097 423,90 |
| kassa | 2 820,29 | 366,79 |
| hesablaşma hesabı | 673 328,35 | 2 797 935,56 |
| valyuta hesabı | 5 120 695,41 | 2 097 396,31 |
| depozit hesablar | 59 421 153,76 | 29 194 122,40 |
| sair pul vəsaitləri | 3 390,41 | 7 602,84 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 10 906 195,58 | 10 471 352,07 |
| dövlət qiymətli kağızları | 10 906 195,58 | 10 471 352,07 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 3 284 346,08 | 1 623 658,06 |
| həyat sığortası sahəsi üzrə | 3 284 346,08 | 1 623 658,06 |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | 94 825,16 | 121 869,07 |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | 81 727,94 | 113 020,64 |
| təhtəl hesablar | 13 097,22 | 8 848,43 |
| **Sair aktivlər** | 202 076,85 | 286 049,60 |
| *Cəmi qısamüddətli aktivlər* | 82 941 738,39 | 50 334 059,90 |
| **CƏMİ AKTİVLƏR** | 88 425 331,65 | 55 791 638,68 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 6 500 000,00 | 6 500 000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | 4 015 189,65 | 4 015 189,65 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 4 015 189,65 | 4 015 189,65 |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 7 548 255,66 | 4 813 740,55 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 4 792 064,30 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 7 548 255,66 | 21 676,25 |
| Elan edilmiş dividendlər | | |
| *Cəmi kapital* | 18 063 445,31 | 15 328 930,20 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | 68 069 171,15 | 38 042 038,01 |
| Həyat sığortası sahəsi üzrə: | 68 069 171,15 | 38 042 038,01 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| F4 | **Kapital ehtiyatları:** | 0,00 | 0,00 |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| F6 | digər kapital ehtiyatları | | |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 1 247 000,00 | 1 518 000,00 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | 330 000,00 | 526 000,00 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 917 000,00 | 1 247 000,00 |
| F11 | Elan edilmiş dividendlər | | -255 000,00 |
| F12 | Ödənilmiş dividendlər | | |
| G1 | ***Cəmi kapital*** | 1 257 000,00 | 1 528 000,00 |
| | **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| H7 | **Təxirə salınmış vergi öhdəlikləri** | | |
| H8 | **Kreditor borcları:** | 0,00 | 0,00 |
| H9 | əməyin ödənilməsi üzrə | | |
| H10 | büdcə üzrə | | |
| H11 | sosial sığorta və təminat üzrə | | |
| H12 | digər məcburi ödənişlər üzrə | | |
| H13 | asılı təşkilatlar üzrə | | |
| H14 | sair kreditorlar | | |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| H16 | Gələcək hesabat dövrünün gəlirləri | | |
| H17 | Alınmış avanslar | | |
| H22 | **Sığorta və təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 5 441 000,00 | 5 637 000,00 |
| H23 | Sığorta fəaliyyəti üzrə kreditor borclar | | |
| H24 | Təkrarsığorta fəaliyyəti üzrə kreditor borclar | 5 441 000,00 | 5 637 000,00 |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| H22 | **Sair öhdəliklər** | | |
| I1 | ***Cəmi uzunmüddətli öhdəliklər*** | 5 441 000,00 | 5 637 000,00 |
| | **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| J4 | **Kreditor borcları:** | 14 000,00 | 532 000,00 |
| J5 | əməyin ödənilməsi üzrə | | |
| J6 | büdcə üzrə | 14 000,00 | 87 000,00 |
| J7 | sosial sığorta və təminat üzrə | | |
| J8 | digər məcburi ödənişlər üzrə | | |
| J9 | asılı təşkilatlar üzrə | | |
| J10 | sair kreditorlar | | 445 000,00 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | | |
| J13 | alınmış avanslar | | |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| J15 | **Sair öhdəliklər** | | |
| K1 | ***Cəmi qısamüddətli öhdəliklər*** | 14 000,00 | 532 000,00 |
| L1 | ***CƏMİ ÖHDƏLİKLƏR*** | 5 455 000,00 | 6 169 000,00 |
| M1 | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 6 712 000,00 | 7 697 000,00 |
| N1 | Qeyd: Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

*manatla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | 1 600 000,00 |
| A11 | Birbaşa sığorta üzrə komisyon muzd | 455 000,00 |
| A12 | təkrarsığorta üzrə komisyon muzd | 1 043 000,00 |
| A13 | təlim xidmətləri üzrə gəlirlər | 102 000,00 |
| A14 | xüsusi ədəbiyyat satışından gəlirlər | |
| A15 | xüsusi proqram təminatının satışından gəlirlər | |
| A16 | hüquqi ekspertiza xidmətindən gəlirlər | |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | |
| A10 | **Məzənnə dəyişməsindən yaranan gəlir** | |
| A9 | **Sair gəlirlər** | |
| B1 | **CƏMİ GƏLİRLƏR** | **1 600 000,00** |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | |
| C8 | **İşlərin aparılması xərcləri** | 890 000,00 |
| C10 | **Məzənnə dəyişməsindən yaranan xərclər** | 51 000,00 |
| C9 | **Sair xərclər** | |
| D1 | **CƏMİ XƏRCLƏR** | **941 000,00** |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | 659 000,00 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| E3 | **Vergi qoyulmadan əvvəl mənfəət (zərər)** | 659 000,00 |
| E4 | **Mənfəət vergisi** | 133 000,00 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 526 000,00 |

# Azexport portalı və "GS1 Azərbaycan" yeni mobil tətbiq işə salıb



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport portalının dəstəyi ilə yeni mobil tətbiq işə salınıb.

Mobil tətbiq "GS1 Azərbaycan"ın məlumat bazasında və Azexport portalında qeydiyyatda olan məhsulların xüsusiyyətləri və istehsalçıları barədə məlumat almaq imkanı verir.

Xarici bazarlarda ştrixkodlar məhsulların keyfiyyətinin qoruması, təchizat zəncirinin idarə edilməsi və digər e-commersin tətbiqi baxımından əhəmiyyətli rol oynayır. Bu məqsədlə Azexport GS1 Azərbaycanla bir sıra birgə layihələr üzərində işləyir.

GS1 Azerbaijan mobil tətbiqi mobil cihaz vasitəsilə məhsulların üzərində yerləşdirilən ştrix-kodları skan edir və baza üzrə axtarış imkanı verir. GS1 bazasında aşkar edilməyən məhsulun saxta olduğunu və ya qeydiyyatdan keçmədiyini ehtimal etmək mümkündür.

Bunun üçün Android və ya İOS tətbiqi yükləyərək, məhsulun üzərindəki barkodu cihazın kamerası ilə skan etmək kifayətdir.

Növbəti mərhələdə təqdim ediləcək həll Made in Azerbaijan məhsullarını saxtalaşdırmadan tamamilə qorumağa imkan yaradacaq. Blokçeyn texnologiyasına əsaslanan həll hər hansı bir məhsulun saxtalaşdırılmasını mümkünsüz edəcək.

Qeyd edək ki, yeni mobil tətbiq "GS1 Azərbaycan", EBRD-nin maliyyə və Azexport portalının texniki dəstəyi ilə hazırlanıb.

KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# İQTİSADİYYATIN MALİYYƏ TƏMİNATININ DİVERSİFİKASİYASI AZAD SAHİBKARLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ İMKANLAR AÇIR

Azərbaycan müstəqillik qazandıqdan sonra onun siyasi müstəqilliyi ilə yanaşı, iqtisadi müstəqilliyini təmin etmək son dərəcə vacib məsələ kimi qarşıda dururdu. Ulu öndər Heydər Əliyev hesab edirdi ki, iqtisadi cəhətdən güclü təməl sütunları yaratmadan ölkənin uzunmüddətli azad, baxımsız yaşaması mümkün deyildir. Bunun üçün mükəmməl idarəetmə modeli hazırlamaq lazım gəlirdi. Tədricən bazar iqtisadiyyatı prinsiplərinə keçmək, azad sahibkarlığın və liberal iqtisadiyyatın təşəkkül tapıb formalaşmasını təmin etmək strateji hədəf seçildi. Respublikada aqrar islahatlar keçirildi, kənd yerlərində yaşayan insanların torpaq üzərində mülkiyyət hüququ tanındı, iqtisadiyyatın ayrı-ayrı sahələrində özəlləşmə proqramlarının həyata keçirilməsinə başlandı, nəhayət azad sahibkarlığın ilk rüşeymləri intişar tapıb formalaşdı. Artıq 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkə iqtisadiyyatının əsas sahələrinin bazar prinsiplərinə keçdiyini bəyan etdi. O vaxtdan 14 il keçir. Qərinələrə bərabər yol qət edilib. Azərbaycanın sosial-iqtisadi həyatında, ölkənin başdan-başa yeniləşməsində və müasirləşməsində son dərəcə müstəsna əhəmiyyət daşıyan bu illərə qısa ekskurs etməyi lazım bildik.

Həmin dövrü səciyyələndirən əsas cəhətlər bunlardır: sıçrayışlı iqtisadi yüksəliş, bütün sahələrdə sürətli inkişaf tempi, regionların sosial-iqtisadi tərəqqisi, əhalinin rifah halının və sosial vəziyyətinin yaxşılaşması, Azərbaycanın beynəlxalq nüfuzunun artması...

«2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun aradan qaldırılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı», «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması, davamlı inkişaf Dövlət Proqramı» qəbul edildi. Həmin proqramların uğurlu icrası nəticəsində yoxsulluq 50 faizdən 5 faizədək, yəni 10 dəfə azaldıldı, maaşlar 5 dəfədən çox, pensiyalar 8 dəfə artdı.

Ölkədə həyata keçirilən uğurlu sosial siyasət nəticəsində 2004-2018-ci illər ərzində 1,9 milyon yeni iş yeri açılmışdır ki, bunun da çox hissəsi regionların payına düşür. Bunun hesabına kənddən şəhərə axın, demək olar ki, minimuma enmiş, bölgələrin həm infrastruktur görkəmi, həm də iqtisadi strukturu köklü şəkildə dəyişmiş, rayon və kəndlərdə yeni sahibkarlıq zümrəsi yaranıb formalaşmışdır. Son 14 il ərzində regionların sosial inkişafına dair üç mərhələ Dövlət Proqramları qəbul edilərək icra olunmuşdur.

Həmin proqramlar özündə kompleks layihələri ehtiva edir ki, bunların hamısı insanın həyat və fəaliyyətinə yönəldilib, burada diqqətdən kənarda qalan sahə yoxdur. Bu illər ərzində həyata keçirilən uğurlu siyasətin və səmərəli fəaliyyətin nəticəsidir ki, 14 il ərzində milli iqtisadiyyat 3 dəfədən çox genişlənmiş, strateji valyuta ehtiyatları 23 dəfə artaraq 42 milyardı ötüb keçmişdir. Bu illər ərzində nəhəng sənaye kompleksi yaradılmış, aqrar sahə yeni inkişaf strategiyası əsasında sürətli inkişaf yoluna çıxarılmışdır. Artıq ölkədə keyfiyyətcə yeni sahibkarlıq zümrəsi, yeni tipli modern müəssisələr və onların istehsal etdikləri milli brendlər yaradılmış və ixrac olunmağa başlamışdır. 2004-2018-ci illər ərzində respublika iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuş, sahibkarlıq subyektlərinə güzəştli şərtlərlə 2 milyard manatdan artıq kredit verilmişdir. Son dövrlərdə respublikamızda həyata keçirilən islahatlar iqtisadiyyatın büdcə sektorunun yenidən qurulmasına, büdcə sisteminin bütün səviyyələrində maliyyə resurslarının optimal hədd üzrə formalaşdırılması və xərclənməsi metodlarının dəyişdirilməsinə imkan yaratmışdır.

Regional inkişaf proqramlarının gerçəkləşdirilməsi nəticə etibarilə ölkədə qeyri-neft sektorunun inkişafının davamlı şəkildə sürətlənməsinə və iqtisadiyyatın diversifikasiya proseslərinin dərinləşməsinə güclü təkan vermişdir ki, bu da əhalinin həyat səviyyəsində öz real təcəssümünü tapmışdır.

Sahibkarlıq mühitini və biznes fəaliyyətini yaxşılaşdırmaq üçün atılan addımlar, investisiyaların təşviq edilməsi ixracyönlü məhsul istehsalının artmasına gətirib çıxarmışdır. Müasir standartlarda infrastruktur obyektlərinin yaradılması, yolların, körpülərin, su qovşaqlarının, meliorasiya və irriqasiya tədbirlərinin görülməsi, içməli su, elektrik enerjisi, təbii qaz, kanalizasiya sisteminin yenidən qurulması layihələrinin reallaşdırılması qeyri-neft sektorunun inkişafına təkan vermişdir.

Bununla yanaşı, səmərəli vergi sisteminin təşviq edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin formalaşdırılması, vergi islahatlarının tətbiq edilməsi, daxili bazarın qorunmasına xidmət edən çevik gömrük siyasətinin həyata keçirilməsi, gömrük tarifləri sisteminin daha azpilləli sistemə keçirilməsinin təmin edilməsi tədbirlərinin 2018-ci ildə də davam etdirilməsi vacib bir vəzifə kimi qarşıya qoyulmuşdur.

2018-ci ildə neftin qiymətinin artım dinamikasının davam edəcəyi, 65-70 dollar civarında qərarlaşacağı gözlənilir ki, bu da istər-istəməz neft gəlirlərini artıracaq və büdcə gəlirlərinə müsbət təsir göstərəcəkdir.

Son illər ərzində neftdən asılılığın aradan qaldırılması üçün şaxələndirilmiş iqtisadiyyata keçid prosesləri gedir. Özəl bölməyə hərtərəfli dövlət qayğısı iqtisadiyyatın liberallaşması prosesinin dərinləşməsinə müsbət təsir göstərir.

Rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətinə əlverişli şəraitin yaradılması yolu ilə yerli istehsalın stimullaşdırılması sonucda istehsalın və emalın çəkisini qeyri-neft sektorunun xeyrinə dəyişmişdir. Nəticədə, qeyri-neft sektorunun artım dinamikası neft-qaz sənayesini əhəmiyyətli dərəcədə üstələmişdir.

2017-ci ilin nəticələrinə görə, respublikanın xarici ticarət dövriyyəsində qeyri-neft məhsullarının çəkisi 24 faiz artmış və ölkənin tədiyyə balansına müsbət təsir göstərmişdir.

2018-ci ildə neft hasilatının azalmasına baxmayaraq, ümumi iqtisadi artım proqnozlaşdırılır. Azərbaycan dünyanın az borc alan 10 ölkəsindən biridir. Ölkəmizdə aparılan islahatlar mötəbər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. «Doing Business 2018» hesabatına görə, Azərbaycan keçən illə müqayisədə 8 pillə irəliləyərək, Avropa və Mərkəzi Asiya regionunda islahat aparan 3 ölkədən biri olub.

Dövlət büdcəsinin xərcləri 2018-ci ildə ÜDM-in 30,1 faizi səviyyəsində proqnozlaşdırılıb, büdcənin sosial yönümü öz prioritetini qoruyub saxlayıb. Bundan başqa, dünyada davam edən iqtisadi və maliyyə böhranlarına rəğmən, valyuta bazarının səmərəli idarə olunması ona gətirib çıxarmışdır ki, əgər iqtisadi şoklar yaşanmazsa, 2018-ci ildə inflyasiyanın birrəqəmli, iqtisadi artımın isə müsbət olması təmin olunacaqdır.

Respublikamızda həyata keçirilən iqtisadi islahatlar insan və şəxsiyyət amilinə, onun hərtərəfli inkişafına yönəlmişdir. Bazar iqtisadiyyatı və yeni iqtisadi münasibətlərin formalaşması sosial müdafiə və əmək hüququ sistemində keyfiyyətcə yeni hədəflər ortaya qoymuşdur. İqtisadiyyatın liberallaşdırılması kortəbii, nizamsız şəkildə deyil, elmi əsaslarla aparıldığından, özəl bölmə dövlətin timsalında özünə dayaq və himayə tapdığına görə, yeni iqtisadi münasibətlər, hər şeydən öncə, insan kapitalına yönəldilir, sosial strategiyanın bütün həlqələrində özünün real təcəssümünü tapır. Neçə illərdir ki, neftdən əldə olunan dividendlər yuxarıda göstərilən problemin həllinə yönəldilir.

2018-ci ilin dövlət büdcəsində ÜDM-də qeyri-neft sektorunun büdcə gəlirləri üzrə çəkisini yüksəltmək, xərclərin investisiya və sosialyönümlüyünə üstünlük vermək, məqsədli proqramlar əsasında hədəflərə doğru inamla irəliləmək vəzifələri qoyulmuşdur. Bütün bu vəzifələrin yerinə yetirilməsi real sektorda iqtisadi fəal əhalinin məşğulluğunun təmin edilməsi üçün geniş imkanlar açacaq.

2018-ci ilin dövlət büdcəsində sosialyönümlü məcmu xərclər 7 milyard 4,9 milyon manat müəyyən edilmişdir ki, bu da keçən illə müqayisədə 2,2 milyard çoxdur.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, bu xərclərin əhəmiyyətli bir hissəsini təşkil edən təhsil xərcləri 11,8 faiz artaraq 2,2 milyard manata çatdırılmışdır. Sosialyönümlü vəsaitlər məşğulluğun təmin edilməsinə, yeni iş yerlərinin açılmasına, sosial müdafiə tədbirlərinin genişləndirilməsinə, əlillərin, aztəminatlı ailələrin, pensiyaçıların təminatının yüksəldilməsinə xərclənəcəkdir.

İnkişafın davamlı və dayanıqlı meyillər üzrə yüksəlişini təmin etmək üçün iqtisadiyyatın, büdcənin, valyuta məzənnəsinin neftdən asılılığının aradan qaldırılması böyük əhəmiyyət kəsb edir. Bunun üçün əsas makroiqtisadi göstəricilərin, ilk növbədə dövlət büdcəsinin neft gəlirlərindən asılılığını aradan qaldırmaq zəruridir. Bu yolla neft gəlirlərinin nəsillər arasında ədalətli bölgüsünü təmin etmək olar. Məhz buna görə Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin həcmi dayanıqlı iqtisadi inkişaf konsepsiyasına uzlaşdırılmalıdır. Pul siyasəti nəticəsində yaranacaq qiymət sabitliyi milli valyutaya etimadı artıracaq, inzibati fiksal siyasətin formalaşdırılmasına xidmət edəcək və iqtisadi artıma müsbət təsir göstərəcəkdir. 2020-ci ildə Dövlət Neft Fondundan büdcə xərclərinə köçürmələrin nisbətinin 15 faizə endirilməsi proqnozlaşdırılır.

Mərkəzi Bankın məlumatına görə, 2018-ci ildə heç bir xarici təsir baş verməzsə, daxili valyuta bazarında sabitlik qorunacaq, tədiyyə balansının cari hesabı neft qiymətlərinin proqnozlaşdırılan qiyməti çərçivəsində valyuta bazarında tələb-təklif arasında olan tarazlığı təmin etməyə imkan verəcəkdir.

Respublikada daxili və xarici dövlət borclarının yuxarı həddi 2018-ci ilin büdcəsində azalma meyilləri ilə müşayiət olunacaq. Bu isə növbəti dövlət borclarının və öhdəliklərin artım tempinin azalması üçün müsbət şərait yaradacaqdır.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, iqtisadiyyatın, o cümlədən onun maliyyə təminatının diversifikasiyası liberal iqtisadi mühitin tam şəkildə bərqərar edilməsinə və ölkənin beynəlxalq imicinin yüksəldilməsinə gətirib çıxaracaq. Azərbaycanın geostrateji üstünlüklərindən hərtərəfli şəkildə istifadə edərək, ciddi iqtisadi dividendlər qazanmaq imkanı olacaq. Zaman bizim xeyrimizə işləyir. Yeni reallıqlar fonunda Azərbaycanı işıqlı sabahlar gözləyir.



**Zülfü İLYASOV,**
**«İqtisadiyyat» qəzetinin bölgə müxbiri**

# Çin Azərbaycana dəyəri 60 milyon dollardan çox avadanlıq təqdim edib



Çin ilə imzalanan qrant müqaviləsinə əsasən, dəyəri 60 milyon dollardan çox olan avadanlıq Azərbaycana təqdim edilib.

Bu barədə Baş nazirin müavini Abid Şərifov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, qrant müqaviləsinə uyğun olaraq növbəti illərdə də avadanlıqlar gətiriləcək. Qrant müqaviləsinin şərtlərinə görə yalnız Çində istehsal olunan avadanlıqlar ölkəyə gətirə bilərlər.

# PAŞA Bank biznes üçün unikal kart məhsulu olan Tacir Kartı daha da təkmilləşdirmişdir

Ticari prosesin iştirakçıları üçün nəzərdə tutulan Tacir Kart daha da təkmilləşdirilərək müştərilərin istifadəsinə verilmişdir.

Tacir Kart ticari prosesdə iştirak edən hər iki tərəf üçün faydalıdır: hazırda malların satışı ilə məşğul olan pərakəndə satış obyektlərinin sahibləri mal, ünvanlı çatdırılma həyata keçirən iri distributorlardan alır. Sahibkarın aldığı malların ödənişləri nağd və ya bank köçürməsi yolu ilə həyata keçirilir. PAŞA Bank Tacir Kart istifadəçiləri üçün unikal şəbəkə yaratmaqla, tərəflər arasında ticari əlaqələrin genişlənməsini və operativliyini təmin edir.

Tacir Kartın PAŞA POS terminalı ilə istifadəsinin Distributor üçün ən önəmli üstünlüklərindən biri 18% ƏDV-nin avtomatik hesablanması ilə yanaşı, həmin məbləğin avtomatik çıxarılaraq, sahibkarın adından vergi depoziti hesabına göndərilməsi imkanıdır. Nağdsız ödənişlərin qəbulunu POS-terminal ilə təchiz olunmuş ekspeditorlar özləri həyata keçirir.

Sahibkar üçün bu kart avtomatlaşdırılmış bir ödəmə imkanı yaradı ki, bu da onların öz işlərini nağdsız şəkildə, daha çevik və operativ olaraq həll etməyə zəmin yaradır.




PAŞA Bankın Kiçik və orta sahibkarlıq üzrə bankçılıq departamentinin direktoru Aleksandr Qolovkonun sözlərinə görə, Bank məhsul və xidmətləri işləyib hazırlayarkən, əsas meyar olaraq müştərilərinin biznes ehtiyaclarını rəhbər tutur. "Əminik ki, Tacir Kartın istifadəsi PAŞA Bankın müştəriləri qarşısında geniş imkanlar açıb, onlara bizneslərin rəqabət üstünlüklərindən faydalanmağa yardım edəcək. Tacir kart məhsulu müştərilərimizə biznes əməliyyatlarını daha təhlükəsiz və səlis şəkildə həyata keçirmək və nağd vəsaiti daha səmərəli idarə etmək imkanı verəcək. Yeni strategiyamız çərçivəsində bank məhsul və xidmətlərinin rəqəmsallaşdırılmasının əsas prioritetimiz olduğunu nəzərə alaraq, müştərilərimizi əmin edirik ki, onlar Tacir kart məhsulu ilə bağlı təqdim olunacaq yeni və daha da geniş üstünlüklərdən faydalanmağa davam edəcəklər», - deyə A.Qolovko qeyd etmişdir.

# Bakıda bank sektorunda nağd pul tədavülünün rolu müzakirə olunub

Azərbaycan Respublikası Mərkəzi Bankının təşkilati dəstəyi ilə Bakıda "Nağd pul tədavülü, banklarda inkassasiya və kassa əməliyyatlarının təşkili" mövzusunda ikigünlük beynəlxalq konfrans keçirilib.



Mərkəzi Bankdan bildiriblər ki, konfransın keçirilməsinin əsas məqsədi nağd pul sahəsində faydalı fikir və təcrübə mübadiləsinin aparılması, yeniliklərin və innovasiyaların tətbiqi, müştərək biznes-ideyalarının tapılması, yeni işgüzar əlaqələrin qurulması üçün imkanların yaradılmasıdır.

Konfransda müasir bank sektorunda nağd pul tədavülünün rolu, nağd pul dövriyyəsinin idarə edilməsində yeni texnologiyaların və konsepsiyaların tətbiqi, pul nişanlarının mühafizə sistemlərinin təkmilləşdirilməsi və saxtakarlığa qarşı mübarizə mövzusunda aktual məsələlər müzakirə olunub. Konfrans çərçivəsində iştirakçı şirkətlər tərəfindən müxtəlif bank avadanlıqları və məhsullarının sərgisi açılıb.

Konfransda MDB və digər ölkələrin mərkəzi banklarının, maliyyə təşkilatlarının, həmçinin banklar üçün ixtisaslaşmış məhsul və xidmətlər istehsal edən şirkətlərin nümayəndələri, nağd pul sferasının aparıcı analitikləri, eləcə də beynəlxalq ekspertləri iştirak ediblər.

Xatırladaq ki, konfransın əsas təşəbbüskarı Ukrayna-Estoniya müştərək qurumu olan "Biznes-Format" şirkətidir. Son illər ərzində Ukrayna, Belarus və Qazaxıstan kimi ölkələrdə bu konfrans uğurla təşkil olunub. Cari ildə isə konfransa Bakı ev sahibliyi edib.

Qeyd edək ki, İpoteka Fondunun Qanuna dəyişiklik təşəbbüsü ilə əlaqədar ASA-nın təşkilatçılığı ilə həm rəhbərlik səviyyəsində, həm də işçi qrupu səviyyəsində görüşlər keçirilib. Bu görüşlərin nəticəsi olaraq sığortaçıların fondla görüşü təşkil olunub.

05-12 aprel 2018-ci il

# "HR üzrə peşəkarlar hər bir müəssisənin işinin irəli aparılmasında mühüm rol oynayır"



Hazırda HR (insan resursları) hər bir təşkilatın strukturuna daxil olan ən önəmli bölmələrdən biridir. Bazar rəqabətinin ən yüksək səviyyəyə çatdığı bir dövrdə insan resurslarına önəm verməyən müəssisə və təşkilatlar tənəzzülə və reqres inkişafa məhkumdur. Ona görə də, müasir dövrdə hər bir müəssisə və təşkilatda HR ilə məşğul olan peşəkar kadrların olması vacibdir. HR işinə böyük önəm verən şirkətlərdən biri də "AtaHolding"-dir. Şirkətin İnsan Resurslarının idarə edilməsi üzrə məsul şəxsi Fərid Məlikzadə ilə görüşüb, insan resursları sahəsində fəaliyyət və bu sahədə aktual məqamlardan danışdıq. Müsahibəni nəzərinizə çatdırırıq.

**Fərid müəllim, Azərbaycanda kütləvi oxucu üçün HR termini nisbətən təzədir. Siz bunu necə izah edərdiniz, sizcə, HR nədir?**

- Bildiyimiz kimi, "Human resources", yəni insan resursları anlayışı hər hansı bir şirkət və ya müəssisənin xidmət və ya istehsal sahəsində qarşıya qoyulan məqsədlərə və nailiyyətlərə çatması üçün istifadə olunan əsas resurslardan biri olan insan amilini özündə ehtiva edir. Yəni, bu halda insan istehsal və ya xidmət prosesinin vacib elementi olmaqla yanaşı, həm də istehsalın yönəldiyi əsas hədəfdir. İnsan resursları şirkət və ya müəssisənin öz daxilində bütün işçiləri əhatə edir. Bu baxımdan insan resurslarının idarə edilməsinin vacibliyi ön plana çıxır. Bu idarəetmə prosesində isə əsas diqqət yenə də bir işçi qüvvəsi kimi insana, onun motivasiyasına, vərdişlərinin, bilik və bacarıqlarının artırılmasına, təkmilləşdirilməsinə yönəlmiş olur. Çox vaxt İnsan Resursları ilə bağlı sahəni və ya hər hansı bir qurumda İnsan Resursları ilə bağlı departamenti kadrlar şöbəsi ilə səhv salırlar. Halbuki, İnsan Resursları təkcə ənənəvi kadrlar şöbəsinin indiyədək həyata keçirmiş olduğu işlərlə kifayətlənmir və daha geniş, ətraflı, uzunmüddətli hədəflərə əsaslanan fəaliyyət sahəsidir. Bu baxımdan, İnsan Resursları üzrə mütəxəssislərin hazırlanması və onların peşəkar fəaliyyəti də hər hansı bir müəssisənin işinin irəli aparılmasında mühüm rol oynayır.

**- Ümumiyyətlə, bu sahədə təsəvvür qıtlığını aradan qaldırmaq üçün nə etmək lazımdır? Bu sahədə nələri tövsiyə edərdiniz?**

- Qeyd etdiyim kimi, HR sahəsi olduqca əhatəli və məsuliyyətli bir sahədir və hər hansı şirkət və ya müəssisə daxilində, insan resurslarının planlaması və seçilməsi, bunun üçün lazımlı işlərin təhlili, öhdəliklərin müəyyən edilməsi, işçi qüvvəsinin seçilməsi üçün iş elanlarının verilməsi, iş üçün müraciət edənlərin qəbulu, görüşlərin aparılması, işə uyğunlaşma, təhsil və inkişaf, uğur və iş qabiliyyətinin ölçülməsi, karyerada yüksəliş, işi dəyişmə zamanı sosial mobilliyin təmin edilməsi, işçi qiymətləndirmə, əməkhaqqı, iş intizamı, tibbi xidmət və digər məsələlərin bir-biri ilə əlaqələndirilməsini ehtiva edir. Bu baxımdan, HR sahəsi tam və bitkin bir şəkildə başa düşülməli və qəbul edilməlidir. Bununla bağlı ayrıca olaraq müəyyən maarifləndirmə işləri aparıla bilər.

**- Hər hansı bir müəssisənin insan resursları siyasətinin əsasını nələr təşkil etməlidir?**

- Peşəkar kadrların hazırlanması, onların təkmilləşdirilməsi və daimi motivasiyası, işlərinin keyfiyyətinin yüksəldilməsi və səmərəliliyinin artırılması kimi amillər hər hansı bir müəssisənin kadr siyasətinin əsasını təşkil etməlidir. Bu baxımdan yuxarıda qeyd etdik ki, HR siyasəti işçi personalın fəaliyyətinin qiymətləndirilməsi və fəaliyyət prosedurlarının müəyyən edilməsini yerinə yetirməklə, bir neçə istiqamət və ya göstərici üzrə aparılır. Yəni, müəssisənin əsas strategiyasını və fəaliyyət hədəflərini dəstəkləyən HR-ın idarə edilməsi planlarını və siyasətini inkişaf etdirmək üçün strateji məqsədlərin inkişaf etdirilməsinə yardım etmək, potensial işçi mənbələrini müəyyən etmək və seçmək, müəssisənin məqsəd və vəzifələrinin həyata keçirilməsi üçün kadr tələblərinin müəyyən edilməsi, həmçinin HR planının hazırlanması kimi məsələlər bu baxımdan HR siyasətini formalaşdırır.

**- Azərbaycanda HR mütəxəssislərinin hazırlıq səviyyəsi ilə bağlı nə deyə bilərsiz?**

- Bu sahədə HR sahəsinin bir spesifik sahə kimi inkişaf etməsi və formalaşmasına da ciddi fikir vermək lazımdır. Həmçinin, insan resursları üzrə mütəxəssisin bütün işi insanlarla, onların peşəkar davranışları və inkişaf, iş motivasiyaları ilə bağlıdır, bu isə işçilərlə, insan resursları ilə daimi iş, ünsiyyət tələb edir. Buna görə də bu sahə üzrə mütəxəssis ilk növbədə ünsiyyətcil, insan psixologiyasını dərindən bilən və idarəçilik qabiliyyətinə, vərdişlərinə malik insanlar olmalıdır. HR mütəxəssisi bütün dəyişkən şərait və şərtlərə, hətta, fors-major hallarına belə hazır və çevik olmalı, bu baxımdan yeni və gözlənilməz çağırışlara cavab verməyi bacarmalıdır.

**- Ölkəmizdə bu sahəyə aid mütəxəssislərin yetərincə hazırlıqlı və bilikli olması üçün nələri tövsiyə edərdiniz?**

- Bu sahədə daim təkmilləşməyə üçün ilk növbədə öyrənməyə və bu sahəyə meyilli olmaq, İnsan Resursları fəlsəfəsini yaxşı bilmək, psixologiyanı yaxşı bilmək, insanlarla işləmək qabiliyyəti, istər online, istərsə də xaricdə keçirilən, peşəkarların apardığı təlim kurslarına qatılmaq, tətbiq edilən yeni texnologiyaları və innovativ yanaşmaları mənimsəmək, bu sahədə rəqabətliliyi qorumaq üçün daim nəzəri və praktiki bilik və vərdişlər qazanmaq və digər kriteriyalara malik olmaq lazımdır.

> "İşə götürdüyünüz insanlar çox ağıllı və zəruri vərdişlərə malik ola bilər. Lakin onlar sizin işə inanmırlarsa, gerçəkdən işləməyəcəklər..."
>
> *Facebook sosial şəbəkəsinin yaradıcısı Mark Zukerberq*

**- Nümayəndəsi olduğunuz müəssisədə HR siyasətinin necə həyata keçirildiyi və bu sahədə fəaliyyətiniz barədə nələri oxuculara çatdırmaq istərdiz?**

- Təmsil etdiyim müəssisənin missiyası və strategiyasına əsaslanaraq "AtaHolding"in və onun Törəmə Təsərrüfat Cəmiyyətlərinin ardıcıl inkişafını təmin etmək bizim əsas prinsipimizdir. Əlavə olaraq, holdinqdə işçilərin daim yeni biliklər və vərdişlər qazanması, öyrənməsi və təkmilləşməsi məsələsi də daim diqqətimizdədir. Bu məqsədlə hazırlanmış strategiya çox nizamlı şəkildə həyata keçirilir. Əməkdaşlarımızın təkmilləşməsi və peşə təlimi ilə mütəmadi məşğul oluruq, onlar üçün təlim təşkil edilir, həmçinin bu baxımdan təlim materialları da dinamizmə uyğun olaraq daim yenilənir. Bundan başqa, işçilərimizin motivasiyası üçün müxtəlif üsullardan, onlar üçün tibbi sığorta, təlim haqqının ödənilməsi, mükafatlandırmalar və ən əsası korporativ kommunikasiyanı gücləndirmək və işçilərin motivasiyasını yüksəltmək məqsədilə mütəmadi olaraq tədbirlərin təşkil edilməsi və digər formalardan istifadə olunur.

**- Fərid müəllim, sonda HR ilə maraqlanan, ümumiyyətlə Azərbaycanda HR sahəsində uğur qazanmaq istəyən insanlara nə demək istərdiniz?**

- Hər bir halda beynəlxalq təcrübədən yararlanmaq lazımdır. Sonda "Luxor and Excalibur Hotel"in prezidenti Rene Vestin sözlərini xatırlatmaq istərdim. "Sizin strategiyanız ən yaxşı strategiya ola bilər, ofisiniz dünyanın ən gözəl şəhərində, ən gözəl binada yerləşə bilər. Lakin siz işçilərinizin ürəklərini fəth edə bilməmisinizsə, ürəyinizdə olan arzularınızın heç biri həyata keçməyəcək"…

**- Fərid müəllim, maraqlı müsahibəyə görə sağ olun. Arzu edirik ki, ürəyinizdə tutduğunuz arzularınızın hamısı həyata keçsin.**

**Müsahibəni apardı: "AtaHolding"in Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova**

# Azercell-lə 4G xidməti indi daha rahat

Azərbaycan rabitə bazarının lider mobil operatoru Azercell Telekom MMC abunəçilərinə keyfiyyətli xidmət göstərməkdə davam edir. Ölkəmizdə ən böyük 4G şəbəkəsinə sahib Azercell Telekom bütün abunəçilərinin 4G xidmətindən rahatlıqla yararlanması üçün HSS (Home Subscriber Server) modernizasiya layihəsini uğurla tamamlayaraq abunəçilərinin ixtiyarına verib. Artıq 4G-ni dəstəkləyən həm Sim kartı, həm də mobil cihazı olan Azercell abunəçiləri Azercell Ekspres ofislərinə müraciət etmədən 4G xidmətindən yararlana biləcəklər. Bunun üçün abunəçinin istifadə etdiyi cihazda 4G-ni seçməsi yetərlidir. Məlumat üçün bidirək ki, HSS layihəsində abunəçinin istifadə edə biləcəyi xidmətlər haqqında bütün məlumatlar bir bazada yerləşir ki, bu da abunəçiyə digər servis və şəbəkələrə asanlıqla qoşulma və istifadə etmə imkanı verir.

Qeyd edək ki, ölkədə 4G xidmətini ilk dəfə abunəçilərinə təqdim edən və Azərbaycanın bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən Azercell 2017-ci ildə Bakı, Abşeron yarımadası ilə yanaşı, Gəncə, Bərdə, Şəmkir və Lənkəranda da 4G stansiyaları quraşdırdı və bununla da LTE xidmətini regionlara gətirən ilk mobil operator oldu. Ölkədə ən böyük LTE şəbəkəsinə sahib olan Azercell-in 4G internet istifadəçilərinin sayı 2017-ci ildə əvvəlki illə müqayisədə 3 dəfə artdı, mobil internetdən istifadə həcmi isə 50% çoxaldı.

Məlumat üçün bildirək ki, 4G şəbəkəsinin təmin etdiyi inanılmaz yüksək sürət müasir İnternet məkanının təklif etdiyi mobil TV, videokonfrans, onlayn oyun və müxtəlif proqramlardan daha rahat istifadəni mümkün edir.

# Bakcell və "Xalq Bank"dan minlərlə hədiyyə

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell özünün "Ulduzum" loyallıq proqramının iştirakçılarını sərfəli təkliflər və inanılmaz kampaniyalarla sevindirməyə davam edir. "Xalq Bank"la "Ulduzum" hədiyyələr qazandırır!" kampaniyasında iştirak etməklə "Ulduzum" abunəçiləri gözəl hədiyyələr qazanmaq şansı əldə edirlər.

15 mart 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixinədək keçirilən ani lotereyanın şərtlərinə əsasən, "Xalq Bank"ın filiallarında müvafiq bank əməliyyatlarından (təcili pul köçürmələri, kommunal, radio, internet, TV xidmətlərinin, yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələrin ödənilməsi, bank hesabları üzrə bəzi əməliyyatlar, depozit seyflərinin icarəsi, ödəniş kartının əldə edilməsi və s.) istifadə edən hər bir şəxs 8000-dən artıq hədiyyədən birini qazanacaq.

Ani lotereyada iştirak edib hədiyyələri qazanmaq üçün "XalqBank"ın istənilən filialında yuxarıda göstərilən bank əməliyyatlarından istifadə zamanı XALQBANK sözünü 5555 nömrəsinə pulsuz SMS vasitəsilə göndərməklə alınan "Ulduzum" kodunu Bankın əməkdaşına təqdim etmək lazımdır. Həmin kod bank əməkdaşı tərəfindən elektron lotereya proqramına daxil edilir. Proqram təsadüfi seçim yolu ilə müştərinin hədiyyəsini müəyyən edir və hədiyyə yerində təqdim olunur.

2.7 milyon nəfərdən çox abunəçisi və 230-dək tərəfdaşı olan "Ulduzum" bu gün abunəçilərə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərinin və proqramının tərəfdaşları olan şirkət müştərilərinin sadiqliyini təşviq etməklə təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda belə ən yaxşı müştəri xidməti göstərən proqramlardan biridir.

"Bakcell"in təqdim etdiyi "Ulduzum" loyallıq proqramına bütün Bakcell abunəçiləri iştirak edə bilər. Bunun üçün heç bir xüsusi ödəniş və yaxud abunə haqqı tələb olunmur. Ulduzum proqramına qoşulmaq üçün "1" yazıb 5555 qısa nömrəsinə pulsuz SMS göndərmək kifayətdir.

Həmçinin, "Ulduzum" proqramından daha rahat şəkildə istifadə etmək üçün Bakcell Ulduzum mobil tətbiqetməsini (həm iOS, həm də Android platforması üçün) www.ulduzum.az saytından yükləmək olar.

# Azercell-də təcrübə keçmək istəyən tələbələr üçün növbəti imkan

Şirkət Yay Tələbə Təcrübə Proqramına başlayır.

Hər zaman gənc nəslin inkişafına böyük önəm verən ölkənin lider mobil operatoru Azercell Telekom növbəti dəfə Yay Tələbə Təcrübə Proqramına başlayır. Aprelin 2-dən etibarən Azərbaycanın ali təhsil ocaqlarında bakalavr səviyyəsinin son iki kursunda və magistr pilləsində təhsil alan tələbələr, eyni zamanda, Təhsil Nazirliyi SABAH qrupu tələbələri üçün Yay Tələbə Təcrübə Proqramına start verilir. Tələbələr 2018-ci ilin 13 aprel tarixinə qədər https://www.azercell.com/az/company/career/development_oportunities/internship2018/ linkinə daxil olmaqla proqrama müraciət edə bilərlər. Tələbələr 2 iyul tarixindən başlayacaq proqram çərçivəsində Azercell-də 2 ay təcrübə keçmək şansı qazanacaqlar. Yay Tələbə Təcrübə Proqramı mərhələlərlə seçilən gənclərə Azercell-də təcrübə keçmək imkanı qazandıraraq, ali məktəblərdə öyrəndikləri nəzəri bilikləri real iş şəraitində tətbiq etmək imkanı yaradır. Tələbələr telekommunikasiya sənayesi barədə birbaşa mənbədən bilik əldə edərək, maraqlı və məsuliyyətli layihələrə cəlb olunurlar, bu da gənclərin gələcək karyera inkişafına öz töhfəsini verir. 2008-ci ildən indiyə qədər keçirilən bu proqram çərçivəsində 13 nəfər SABAH qrupu tələbələri olmaqla 155 tələbə Azercell-in Tələbə Təcrübə Proqramı çərçivəsində təcrübə keçib, onlardan 20-si isə şirkətdə işlə təmin olunub.

Məlumat üçün bildirək ki, Azercell Telekom öz fəaliyyəti boyunca daim gənclərin inkişafına yönələn layihələr həyata keçirir. Azercell-in həyata keçirdiyi sosial layihələrin böyük bir qismi də təhsillə bağlıdır. Eyni zamanda Azercell aparıcı universitetlərlə əməkdaşlıq edir, bu təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsinə yardım göstərir.




# UNEC alimlərinin tədqiqatı qlobal elmi bazalarda

UNEC-in alimlərinin tədqiqat işləri dünyanın ən böyük istinad bazası olan "Scopus" və "Web of Science" məlumat bazasına daxil edilib.

UNEC-in "İqtisadiyyat" kafedrasının dosenti Rövşən Əkbərov ilə "Beynəlxalq iqtisadiyyat" kafedrasının dosenti Emin Qəriblinin həmmüəllifi olduqları "İntuitiv linqvistik fazzi rəqəmlər vasitəsilə sosial-iqtisadi inkişafın analizi" və UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin direktor müavini, "Beynəlxalq iqtisadiyyat" (ingilis dilli) kafedrasının dosenti İnara Rzayevanın həmmüəllifi olduğu "BMT-nin FAO-nun ərzaq təhlükəsizliyi proqramı çərçivəsində nəticələrin monitorinqi və hesabat verməyə üçün qeyri-səlis koqnitiv model inkişafı" mövzularında tədqiqat işləri "Scopus" məlumat bazasına daxil olan "Procedia Computer Science" (İSSN 1877-0509 online, 120 (2017), təsir faktoru (CiteSCore):1.01) jurnalında dərc olunub.

UNEC alimlərinin tədqiqatları, eyni zamanda, "Clarivate Analitics" şirkətinin "Web of Science" bazasına da daxil edilib.

# KRİPTOVALYUTANIN ANATOMİYASINA DAİR

2014-cü ilin 25 mart tarixində ABŞ-ın Daxili Gəlirlər Xidməti (İnternal Revenue Service - İRS - ABŞ-ın vergilərin yığılması və vergiqoyma haqqında qanunvericiliyə riayət edilməsinə nəzarət edilməsi ilə məşğul olan federal hökumətinin dövlət orqanı) qərar qəbul etdi ki, “bitcoin” valyuta kimi yox, vergiqoyma məqsədləri üçün mülkiyyət kimi nəzərdən keçiriləcəkdir. Bu o deməkdir ki, “bitcoin” kapital artımına görə vergiyə cəlb olunacaqdır.

2013-cü ilin avqust ayında ABŞ-ın Texas ştatının şərq mahalının (dairəsinin) federal hakimi Amos Matsant qərar qəbul etdi ki, kriptovalyuta (xüsusilə “bitcoin”) pul qismində istifadə olunacaqsa, o, valyuta və ya pul formasıdır. Bu qərar ABŞ-ın Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyasının (SEC) kriptovalyutadan istifadə edilməklə qiymətli kağızlarla dələduzluq hallarına münasibətdə yurisdiksiyaya malik olmağa imkan verdi.



Çinin “bitcoin”lər üçün ticarət platforması olan 6BL qəfildən 2013-cü ilin 26 oktyabrında bağlandı.

2014-cü ilin fevral ayında kriptovalyuta mətbuatın sərlövhəsində göründü: Mt Gox (“Bitcoin” kriptovalyutası ilə milli valyutalar arasında əməliyyatları həyata keçirən rəqəmsal valyutaların birjası) müflis elan olundu. Şirkət bəyan etdi ki, o, ehtimal ki, oğurluq səbəbindən öz müştərilərinin “bitcoin”lərindən yaranan 473 milyon dollar itirdi. Bu, təxminən 750 000 “bitcoin” ekvivalentdir və ya bütün mövcud “bitcoin”lərin 7%-nə yaxın idi. Bu böhran səbəbindən “bitcoin”in qiyməti dekabr ayındakı maksimum, təxminən 1160 dollardan fevral ayında 400 dollara qədər endi.

2017-ci ilin 21 noyabr tarixdə fidusiar və ya fiat pullar (nominal dəyəri materialın dəyərindən asılı olmayaraq, dövlət tərəfindən müəyyən edilən və zəmanət verilən pullardır, kredit puludur) statusuna sifarişlə kriptovalyutanı dəstəkləyən Tether internet şəbəkəsi öz əsas pul kisəsindən USTD formasından 31 milyon dollar itirərək sındırılmışdı.

Bir sıra ölkələrdə, məsələn, Fransada və Hindistanda “bitcoin”in tənzimlənməsi və hüquqi statusu haqqında rəsmi qərar olmasa da, tənzimləyicilər bəyan edirlər ki, onlar kriptovalyutalara münasibətdə mövqelərini təkmilləşdirməyə cəhd edirlər və yüksək volatilliyi (dəyişkənliyi) səbəbindən kriptovalyutalara yönəldilən investisiyaların yüksək riskləri haqqında potensial istifadəçilərə xəbərdarlıq edirlər.

2017-ci ilin 28 avqust tarixində Rusiyanın Maliyyə Nazirliyi kriptovalyutanı maliyyə aktivi kimi hesab etməyi təklif etdi.

Türkiyədə dini işlər idarəsi mentalitet baxımından kriptovalyutanın istifadə edilməsini məqsədəuyğun hesab etməmişdir. Ümumiyyətlə, dünyada “bitcoon”ə tələbat getdikcə artır. 2018-ci ildə “bitcoin”in məzənnəsinin xeyli artımı gözlənilir. Mağaza şəbəkəsində on-line alış-veriş, müştərilərlə və işçilərlə hesablaşmalar, investisiya əməliyyatları və ya sadəcə möhtəkirlik əməliyyatları – bütün bunlar hazırda “bitcoin”lə baş verir. Əsas dünya valyutalarına münasibətdə onun aktual məzənnəsi əvvəlki kimi bütün dünya birliyi üçün böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, “bitcoin”ə olan tələbatın artması nəticəsində kriptovalyutanın qiyməti də yüksəkdir. Eyni zamanda, aparıcı maliyyə orqanları qeyri-məhdud miqdarda valyuta - dollar, avro buraxır (buraya manatı da aid etmək olar). Elektron pulların miqdarı məhdud-dur, buna görə də “bitcoin”in dollar ifadəsində dəyəri artır. “Bitcoin”in qiyməti gələcəkdə də artacaqdır.

Qeyd etmək lazımdır ki, yaxın zamanlarda Azərbaycanda kriptovalyutanın icazəsi gözlənilmir. Bunun üçün ilkin olaraq bank sektorunun möhkəmlənməsi vacibdir, bundan sonra müasir ödəniş sistemlərinin tətbiqindən danışmaq mümkündür. Lakin gələcəkdə ölkəmizdə kriptovalyutanın tətbiqi labüd olacaqdır.

Kriptovalyutalar milli hökumətin buna necə reaksiya verməsindən asılı olmayaraq, gələcəyin tədiyyə alətidir. Lakin Azərbaycanda valyuta rejiminin və iqtisadiyyatın liberallığının kifayət qədər yüksək olmaması səbəbindən bu proses uzun müddət tələb edəcəkdir.

Hazırda Azərbaycan kriptovalyutanın tətbiqinə tam hazır deyil, axı, ölkənin milli valyutası hökumət tərəfindən kifayət qədər sərt tənzimlənir. Bundan əlavə, Azərbaycanda informasiya texnologiyaları sahəsində də bir sıra problemlər mövcuddur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kriptovalyutanın istifadə edilməsi və inkişafı məsələsi artıq çoxdandır ki, gündəmdədir.

2016-cı ilin sentyabr ayında Azərbaycanda “kriptomanat” - milli rəqəmsal valyutaların yaradılması imkanı müzakirə olunmuşdu, lakin milli xüsusiyyətlər baxımından (kredit kartları və digər ödəniş alətləri əvəzinə nağd pullardan istifadə edilməsi səbəbindən) bu məsələ həlləlik aktual deyil.

Fikrimizcə, Azərbaycanda kriptovalyutanın indi tətbiqi maliyyə xaosuna, yəni hərc-mərcliyə gətirib çıxara bilər, lakin virtual valyutalar gələcəyin iqtisadiyyatına aiddir və ölkənin tənzimləyici pul-kredit və maliyyə sferası orqanları qarşısında onun tətbiqinin hazırlanmasına dair məsələ durur.

Azərbaycanda elektron valyutanın, yəni kriptovalyutanın hazırlığı prosesinə 2017-ci ildən başlanmışdır. Artıq 2017-ci ilin 30 sentyabr tarixindən Azərbaycanın İnternet məkanında “Az Coin.az” saytı yaranmışdır və o, kriptovalyutanın əmələ gəlməsi istiqamətində ilk saytdır.

Azərbaycanda kriptovalyutanın, daha doğrusu, “bitcoin” kriptovalyutasının alqı-satqısı haqqında qanunvericilik yoxdur. Bir sıra yerli analitiklərin və hüquqşünasların fikrincə, Azərbaycan Respublikası ərazisində kriptovalyutanın istehsalı (mining bitcoins), eləcə alqı-satqısı yerli qanunvericiliyin bütöv bir sıra bəndlərini və müddəalarını poza bilər, buna görə də ölkə ərazisində kriptovalyuta istehsalı üçün avadanlığın, həmçinin kriptovalyutanın alqı və satqısına cəhd edərək Bakı şəhərində müxtəlif vasitəçilərin xidmətlərinə müraciət etməyə dəyməz.

Analitiklərin fikrincə, “biticoin”ə pul qoymaq və öz investisiyalarınız ilə risk etmək yerinə, çoxsaylı beynəlxalq birjalardan birində bu əməliyyatı müstəqil yerinə yetirmək daha yaxşıdır.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# “AITF 2018” turizm sərgisində 20 ölkədən 277 şirkət iştirak edəcək



Aprelin 5-dən 7-dək Bakı Ekspo Mərkəzində regionda turizm sənayesi üzrə aparıcı tədbirlərdən biri olan 17-ci Azərbaycan Beynəlxalq “Turizm və Səyahətlər” (“AITF 2018”) sərgisi keçiriləcək. Bu sərgi turizm biznesi, yerli və regional turizm təşkilatları, dövlət strukturları, eləcə də media nümayəndələrini yenidən bir araya toplayacaq və regionun həm daxili, həm də xarici turizm dinamikasını təqdim edəcək. Xəzəryanı regionun turizm sənayesinin bu əsas sərgisində mühüm görüşlərin keçirilməsi, tərəfdaşlıq müqavilələrinin bağlanması, habelə yeni proqram və turizm marşrutlarının elan edilməsi gözlənilir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri “AITF 2018” turizm sərgisinə həsr edilmiş mətbuat konfransında “ITE Group” şirkətinin regional direktoru Edvard Stroon deyib.

Bildirilib ki, bu “Bütün dünya – bir sərgi” şüarı altında keçirilən “AITF” sərgisində 20 ölkəni təmsil edən 277 şirkət iştirak edəcək. Eyni zamanda, ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Bu il sərgidə müxtəlif turizm istiqamətləri, hava yolları və otel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim ediləcək. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çex, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və bir sıra digər ölkələri təmsil edən şirkətlər yer alır. “AITF 2018” sərgisinin tərəfdaş ölkəsi hər il mütəmadi olaraq öz milli stendi ilə çıxış edən Bolqarıstandır.

Sərgidə “Tibbi və sağlamlıq turizmi” sektoru geniş təqdim olunacaq. Bu sektorun iştirakçıları istirahət məkanlarını seçməklə yanaşı, yüksəkixtisaslı tibbi xidmətlərdən də faydalanmaq üçün müxtəlif imkanlar nümayiş etdirəcəklər. Bu il tibb turizm seqmentində Çexiya, Rusiya, Sloveniya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən 40-dan çox tibb mərkəzi, klinika, sağlamlıq ocağı və sanatoriyalar iştirak edir.

Turizmin ölkə iqtisadiyyatının perspektivli sahələrindən biri olduğunu söyləyən Mədəniyyət və Turizm Nazirliyinin turizm şöbəsinin müdiri Aydın İsmiyev qeyd edib ki, sözügedən sərgi hər il Azərbaycanda turizm bazarının imkanlarını nümayiş etdirməklə, ölkənin daxili turizm sektorunun inkişafında yaxından iştirak edir. Eyni zamanda, sərgi Azərbaycanın turizm potensialını əyani şəkildə xarici qonaqlara nümayiş etdirir. A.İsmiyev ötən il olduğu kimi, bu il də ölkəmizə turistlərin gəlişində artım olacağını vurğulayıb.

Sərginin meneceri Cəmilə Quliyeva söyləyib ki, eksponentlər arasında xarici ölkələri təmsil edən debütant şirkətlər də yer alır. Onun sözlərinə görə, debütantlar “AITF” iştirakçılarının 31 faizini təşkil edir. “AITF” sərgisi ölkəmizdə daxili turizmin inkişafının fəal şəkildə əks etdirir və bu il də istisna olmayacaq. Hər zaman olduğu kimi, bu il ölkənin turizm potensialı yerli regionlar tərəfindən nümayiş olunacaq və “Ulduz Turizm”, “Pasha Travel” və başqa turoperatorlar, eləcə də “Absheron Hotels Group”, “Gilan Hospitality” və digər otellər şəbəkəsi öz xidmətlərini təqdim edəcək. Sərgidə İsmayıllı, Lənkəran, Masallı, Şəki, Xaçmaz və Sumqayıtı təmsil edən regional turizm idarələri iştirak edir.

Tədbirlər üzrə menecer Nəzrin Şamxalova bildirib ki, “AITF” ilə birlikdə 12-ci Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar “Horex Caucasus 2018” sərgisi keçiriləcək. “Horex Caucasus 2018” regionda otel və restoran sektorunun yeganə ixtisaslaşdırılmış sərgisidir.


# E L A N

**PTİY İB - «Peşəyönümlü Təhsilin İnkişafına Yardım İctimai Birliyi» Şəhid və Qarabağ qazilərinin övladları üçün Bakı şəhərində İKT yönümlü 3 aylıq kurslar açır ("Veb Dizayner", "İnternet reklam", "İnterner marketinq" kursları). Kursu bitirənlərə sertifikat veriləcək. Dərslər kiçik qruplarda aparılacaqdır. Bu aksiyanın təşkili üçün sponsor dəstəyinə ehtiyac var. Sponsor olmaq istəyən təşkilat və fiziki şəxslər əlaqə üçün 055 436 94 02 telefon nömrəsinə zəng vura və bu e-poçtaya müraciət edə bilərlər: ptiyib@mail.ru.**


# “Bakcell”dən beynəlxalq uşaq şahmat turnirinə dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell 1-6 aprel 2018-ci il tarixlərində Bakı şəhərində keçirilən uşaqlar arasında 17-ci beynəlxalq şahmat turnirinə dəstək göstərib.

Bu ənənəvi turnir “Gənclik” Şahmat Klubu və Fransanın Azərbaycandakı Səfirliyi tərəfindən Azərbaycan Şahmat Federasiyasının təşkilati dəstəyi ilə keçirilir. İsveçrə sistemi üzrə keçirilən bu turnirdə Azərbaycan, Fransa, Böyük Britaniya, Gürcüstan, Rusiya, Türkiyə, Serbiya və Qazaxıstandan 50-dən çox gənc şahmatçı iştirak edir. Gənc istedadlı şahmatçıları həmişəki kimi “Bakcell”dən maraqlı hədiyyələr gözləyir.

Bakcell şirkəti artıq bir neçə ildir ki, ölkəmizdə keçirilən beynəlxalq uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün “Bakcell Stars” Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaqlara yönəlmiş genişmiqyaslı layihələri həyata keçirir.


**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**